Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

5 DEKABR 2019-cu il

№ 216 (4114)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# FAŞİST NJDEDƏN SONRA RUSİYADA DAHA ÜÇ DAŞNAKIN XATİRƏ LÖVHƏSİ SÖKÜLDÜ - İRƏVANDAKI RUS SƏFİRLİYİ ƏHATƏYƏ ALINDI...

səh. 8

Prezident Əliyev yeni icra başçıları qarşısında qəti tapşırıqlar qoydu - "Əgər vətəndaşlar razı olsalar... mən də razı olacağam" səh. 3

Mehriban Əliyevanın səfərindən sonra Rusiya-Azərbaycan münasibətlərində yeni - innovasiyalar istiqamətinin açıldığını Lavrov da təsdiqlədi... səh. 4

Ermənistan Bratislavada predmetli danışıqlara məcbur edildi...(?) səh. 4

Lavrovun Bakı görüşlərinin daha bir nəticəsi - Paşinyanın Bişkekdə "Azərbaycana silah satmayın" çağırışı yerə düşdü... səh. 6

Rəsmi Bakı Moskvadan yeni silahlar alır, İrəvan böyük qorxu içində... səh. 9

Armavirdə AzTV-nin müxbiri Njdenin heykəlinə görə bir dəstə erməninin hücumuna məruz qaldı... səh. 2

Gənc alimlərin say problemi - yaşı 30-dək olan cəmi 325 alim... səh. 14

Turizm sahəsində yeni işə başlayanlara vergi güzəştləri nəzərdə tutulur səh. 14



səh. 5

## Azərbaycanda kadr islahatlarını ləkələmək istəyən «erməni variantı» - klanlararası mübarizənin nəticəsi...





Lavrovun səfərinin nəticələri Ermənistana daha bir zərbə vurdu - Qarabağ icmalararası danışığı istəməyən tək ermənilərdir... səh. 6

Paşinyan uğursuz futbolçu Mxitaryanı Bakıya qoymurdu, indi vəzifəli erməni məmurları özü şəxsən göndərir... səh. 7

Dünyanın ən böyük əhalisinə malik ölkələrdən Azərbaycana yeni axın başlanacaq səh. 10

səh. 5 Məmmədyarovla Mnatsakanyanın Bratislava görüşü ermənilər üçün niyə son şans kimi dəyərləndirilir?



səh. 7 Ermənilərə "qucaq açan müsəlman dövlətlərinin" özünüifşası davam edir - Kral Hüseyn İrəvana gedir



səh. 11 Şəhidlərimizin müqəddəs statusunu da ikiyə bölürlər - hərbi şəhid, mülki şəhid?



səh. 12 Çox deyiləndən sonra banklar kredit faizlərini aşağı saldı, sonra nə olacaq...



səh. 12 İcbari tibbi sığortanın uğur qazanacağına şübhələr var - kadr çatışmır, xidmət səviyyəsi aşağıdır və sair...





## Birinci vitse-prezident Mehriban Əliyeva Xalq artisti Əlibaba Məmmədovun evində qonaq olub

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva dekabrın 4-də Xalq artisti, görkəmli muğam ifaçısı, bəstəkar-xanəndə Əlibaba Məmmədovun evində qonaq olub.

## Armavirdə AzTV-nin müxbiri Njdenin heykəlinə görə bir dəstə erməninin hücumuna məruz qaldı...

*Azərbaycan Mətbuat Şurası Rusiya Jurnalistlər İttifaqına müraciət ünvanlayıb*

**Azərbaycan Mətbuat Şurası Azərbaycan Televiziyasının Rusiya üzrə xüsusi müxbiri Zakir Musayevin fəaliyyət göstərdiyi ölkənin Krasnodar vilayətinin Armavir şəhərində peşə fəaliyyətini yerinə yetirərkən təzyiqə məruz qalması ilə bağlı Rusiya Jurnalistlər İttifaqına müraciət ünvanlayıb.**

Müraciətdə bildirilir ki, Armavir şəhərində erməni terrorçusu, Böyük Vətən Müharibəsi illərində nasist Almaniyasının təşkil etdiyi legionda Sovet İttifaqına qarşı döyüşmüş Qaregin Njdeyə xatirə lövhəsi qoyularkən bu, yerli ictimaiyyətin mənfi reaksiyasına səbəb olub. Z.Musayevin məsələ ilə əlaqədar ötən ay hazırladığı reportaj onun çalışdığı Azərbaycan Televiziyasında yayımlanıb. "Kəskin etirazın nəticəsi olaraq sözügedən xatirə lövhəsi sökülüb. Z.Musayev isə bununla bağlı yenidən reportaj hazırlayarkən təxminən 50-dək erməni onu mühasirəyə alıb, çəkiliş qrupunun kamerasını sındırıb, jurnalistin kompyuterini əlindən almağa cəhd göstərib. Aqressiv dəstə hətta polisin xəbərdarlığına da məhəl qoymayıb", - deyə müraciətdə qeyd edilib.

Müraciətdə eyni zamanda bildirilib ki, söz və ifadə azadlığını boğmağa, jurnalistin peşə fəaliyyətinə zoraki üsullarla mane olmağa yönələn bu hadisə Azərbaycan cəmiyyətində, eləcə də media ictimaiyyətində dərin hiddət və təəssüf hissi doğurub:"Baş vermiş hadisəyə qanun çərçivəsində layiqli qiymətin verilməsi oxşar halların gələcəkdə təkrarlanmaması baxımından önəmli və zəruridir. Əminik ki, nəinki Rusiyanın, eləcə də dünyanın aparıcı media qurumlarından olan Rusiya Jurnalistlər İttifaqı məsələyə münasibətdə adekvat hüquqi tədbirin seçilməsinə öz dəstəyini əsirgəməyəcəkdir. Sizdən bununla bağlı müvafiq kömək göstərməyinizi xahiş edirik".

# Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğun olduğu barədə qərar qəbul etdi

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib. "Trend"in məlumatına görə, iclasda Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğunluğu barəsində Azərbaycan Prezidentinin sorğusuna baxılıb və yekun olaraq "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Milli Məclisin müraciətində göstərilmiş parlamentin buraxılması məsələsinin Konstitusiyaya uyğun olması ilə bağlı qərar qəbul olunub.**



Qeyd edək ki, noyabrın 28-də parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurası Milli Məclisə parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi haqqında müraciət ünvanlayıb və bu məsələ ilə əlaqədar iclasın çağırılmasını xahiş edib.

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsinə görə, Milli Məclis bu cür məsələləri müzakirə edib qərar qəbul etmək səlahiyyəti var.

Dekabrın 2-də Milli Məclis müraciəti müzakirəyə çıxarıb və "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Qərar qəbul edib. Azərbaycan Respublikasının Prezidenti Milli Məclisin müraciətində göstərilmiş parlamentin buraxılması məsələsinin Konstitusiyaya uyğunluğu ilə bağlı Konstitusiya Məhkəməsinə sorğu göndərib.

Dekabrın 2-də, həmçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Palatasının növbəti iclasında Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğunluğu barəsində Azərbaycan Prezidentinin sorğusuna baxılaraq, Plenumun icraatına qəbul edilməsi haqqında qərardad çıxarılıb.

# Səfir Hidayət Orucov Qırğızıstan XİN-in 75 illik yubiley medalı ilə təltif olundu

**Qırğızıstan KİV-i məlumat verir ki, 3 dekabr 2019-cu ildə Azərbaycanın Qırğızıstanda səfiri Hidayət Orucov bu ölkənin xarici işlər naziri Çingiz Aydarbekovla görüşüb.**



Görüşdə bu il oktyabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstan Prezidenti Sooronbay Jeenbekovla Bakı şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 7-ci iclası çərçivəsində keçirdiyi ikitərəfli görüşünün nəticələrinin icrası məsələləri müzakirə edilib. Qeyd olunub ki, ölkələrimiz arasında bütün sahələrdə işbirliyinin gücləndirilməsi dövlət başçılarının perspektivli siyasətinin prioritet istiqamətlərindədir. Dövlət başçılarının görüşündəı razılaşdırılmış məsələlərin icrası ilə bağlı geniş müzakirə aparılıb.

Görüşün əvvəlində nazir Ç.Aydarbekov Qırğız Respublikasında diplomatik korpusun duayeni Hidayət Orucovun Qırğızıstan-Azərbaycan əlaqələrinin inkişafında və möhkəmlənməsində əhəmiyyətli rolunu qeyd edərək, ona "Qırğız Respublikası Xarici İşlər Nazirliyinin 75 illiyi (1944-2019)" yubiley medalını təqdim edib.

Qeyd edək ki, bu mükafata Qırğız Respublikasının diplomatik korpusundan yalnız səfir Hidayət Orucov layiq görülüb.

# Dağlıq Qarabağın Azərbaycanlı İcması Lavrovun bəyanatı ilə bağlı bəyanat yaydı

**Rusiya xarici işlər naziri Serqey Lavrovun sözügedən bəyanatında "əhali" sözünün qeyd olunması Dağlıq Qarabağın azərbaycanlı icmasının bu qəbildən olan bəyanatlarının ruhuna uyğundur.**

Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasından "Trend"ə verilən məlumata görə, bu barədə icmanın bəyanatında deyilir.

Bəyanatda bildirilir: "Məlum olduğu kimi, Rusiya xarici işlər naziri Serqey Lavrovun Bakıya səfəri zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsi diqqət mərkəzində olmuşdur. Rusiya xarici işlər naziri xüsusilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları arasında birbaşa təmasların bərpa olunmasının əhəmiyyətini qeyd etmiş, bunun çox perspektivli mövzu olduğunu bildirmişdir. S.Lavrov həmçinin Dağlıq Qarabağın bütün əhalisinin istənilən halda gələcəkdə necə yaşayacaqlarını birgə müəyyən edəcəklərinin önəmini vurğulamışdır.

S.Lavrovun sözügedən bəyanatında "əhali" sözünün qeyd olunması Dağlıq Qarabağın azərbaycanlı icmasının bu qəbildən olan bəyanatlarının ruhuna uyğundur. Bizim əvvəlki bəyanatlarımızda dəfələrlə bildirildiyi kimi, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərimizdən çıxarılması, azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtması və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin bərpa edilməsindən sonra, Dağlıq Qarabağ bölgəsində erməni icması ilə sülh şəraitində birgə yaşayışın yenidən bərpa edilməsinin tərəfdarıyıq.

Dağlıq Qarabağın əzəli azərbaycanlı sakinləri öz torpaqlarına qayıtmayınca, bölgənin hər hansı formada inkişafından söhbət gedə bilməz. Bizim ali məqsədimiz öz yurdumuza qayıtmaq, dağıdılmış tarixi, mədəni, dini irsimizi bərpa etmək və Dağlıq Qarabağda yenidən insanların dinc, xoşbəxt şəkildə yaşayışını təmin etməkdir. Yalnız belə olan halda bölgəmizdə ədalətli və daimi sülhün bərqərar edilməsi mümkündür".

# Prezident Əliyev yeni icra başçıları qarşısında qəti tapşırıqlar qoydu - "Əgər vətəndaşlar razı olsalar... mən də razı olacağam"

**Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edib. Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib ki, siz bu etimadı öz işinizlə doğrultmalısınız:**

- Ölkəmizdə köklü islahatlar aparılır. Bu islahatlar, demək olar ki, bütün sahələri əhatə edir. İqtisadi sahədə, maliyyə sektorundakı islahatlar, şəffaflıqla bağlı olan tədbirlər artıq öz gözəl nəticələrini verməkdədir. Mənə verilən məlumata görə, bu ilin 11 ayında təkcə vergi və gömrük orqanları büdcəyə plandan əlavə 934 milyon manat vəsait daxil etmişlər. Bunun da başlıca səbəbi kadr islahatıdır. Çünki həm vergi, həm gömrük orqanlarında köklü kadr dəyişiklikləri həyata keçirildi, yeni rəhbərlər təyin edildi. Beləliklə, nəticə də göz qabağındadır.

Ona görə, struktur islahatları ilə bərabər, kadr islahatları da aparılır. Struktur islahatlarına gəldikdə, cəmiyyət bu islahatları yüksək qiymətləndirir. Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yeni strukturları təsdiq edildi, Milli Məclis yenidən formalaşacaq. Bütün bunların bir məqsədi var: ölkəmizin uğurlu inkişafını təmin etmək, ölkədə mövcud olan gözəl ab-havanı qoruyub saxlamaq, gənc peşəkar kadrlara imkan vermək ki, onlar özlərini göstərsinlər. Ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara cavab verməlidir.

Ölkəmizin uğurlu inkişafı danılmaz həqiqətdir. Bütün mötəbər beynəlxalq qurumlar bunu qeyd edir. Ölkəmizin çox gözəl beynəlxalq imici vardır. Təkcə oktyabr-noyabr aylarında ölkəmizdə baş vermiş hadisələr, keçirilmiş mötəbər tədbirlər onu göstərir ki, Azərbaycanın beynəlxalq nüfuzu nə qədər yüksəkdir və nə qədər beynəlxalq dəstək göstərilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü yüksək səviyyədə keçirildi və Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürmüşdür. Qoşulmama Hərəkatının Zirvə Görüşü yüksək səviyyədə keçirildi və 120 ölkənin dəstəyi ilə biz bu təşkilata sədr seçilmişik və üç il ərzində sədrlik edəcəyik. Dünya dini liderlərinin Zirvə Görüşü Azərbaycanda keçirilib və 70 ölkədən gəlmiş nümayəndələrin hər biri qeyd edirdi ki, Azərbaycan bu sahədə dünyada aparıcı rol oynayır.

Bizim apardığımız kadr və struktur islahatları, eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir.

Kadr islahatları davam etdiriləcək. Son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir. Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır. Ona görə təyin edilmiş bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulur və bu kadrlar o vəzifələri icra etməlidirlər. Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz.



Rüstəm Xəlilov uzun illər Milli Məclisin deputatı kimi fəaliyyət göstərir. Əvvəlki dövrlərdə də böyük təcrübə toplamışdır. Əminəm ki, Hacıqabul rayonunda bu təcrübəni tətbiq edəcək və rayonun inkişafına töhfə verəcəkdir. Vüqar Novruzov gənc kadrdır və bir müddət Prezident Administrasiyasında işləyib, indi isə Xəzər rayonunda icra hakimiyyəti başçısının müavini kimi işləyir. Yəni bugünkü təyinat da mənim dediyim sözlərin təsdiqidir: təcrübə və gənclərin novatorluğu. Bax, bu sintez həm cəmiyyətdə mövcud olmalıdır, möhkəmlənməlidir, həm də iqtidar komandasında və bütün idarəetmə strukturlarında. Təcrübəli kadrların bilikləri, hazırlığı, eyni zamanda gənclərin novatorluğu, dinamizmi, yeniliklərə meylliliyi - bu prinsiplərin vəhdəti uğurlu inkişafımızı bundan sonra da şərtləndirəcəkdir.

Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın. Siz vətəndaşlarla daim təmasda olmalısınız. Mövcud bütün olan problemləri, ilk növbədə, çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır. Təbii ki, problemlərin bir hissəsinin həlli mərkəzi icra orqanlarının səlahiyyətindədir. Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız, eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz. O məsələlər ki, sizin fəaliyyətinizdən asılıdır, onları özünüz həll etməlisiniz və daim vətəndaşlardan onları narahat edən məsələləri eşitməlisiniz. Ona görə vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır və bu, sizin iş qrafikinizdə prioritet məsələ olmalıdır.

İşsizliklə bağlı problemlər bütövlükdə Azərbaycanda öz həllini tapır və beynəlxalq qurumlar da bu sahədəki uğurlarımızı qeyd edir. Ancaq mən bunu dəfələrlə demişəm, bəzi qonşu ölkələrdən fərqli olaraq, bizim əhalimiz artır. Azərbaycan Cənubi Qafqazda yeganə ölkədir ki, əhali artır və sovet dövründən sonra - müstəqillik illərində təqribən 30 faizə yaxın artıbdır, 7 milyondan 10 milyona çatıbdır. Bütün bunlar, əlbəttə, tələb edir ki, yeni iş yerləri yaradılsın. İş yerlərinin yaradılması üçün investisiya layihələri icra edilməlidir. Ona görə icra başçıları da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyaları cəlb etməlidirlər ki, yerli istehsal artsın və işsizlik daim aşağı səviyyədə olsun.

Hacıqabul rayonunun potensialının inkişafı üçün mənim göstərişimlə Hacıqabul sənaye zonası yaradılır. Bu zonanın böyük potensialı olacaqdır və orada xüsusi güzəştlər rejimi tətbiq ediləcəkdir. Bilirəm ki, bu, sahibkarlar tərəfindən də yüksək qiymətləndirilir. Belə təcrübə artıq var, həm Sumqayıtda, həm Neftçalada, Masallıda, digər şəhər və rayonlarımızda. Mingəçevirdə sənaye zonaları yaradılıbdır və yaradılır. Ona görə sənaye zonasının fəaliyyətinə böyük diqqət verilməlidir. Digər layihələr, o cümlədən kənd təsərrüfatının inkişafı ilə bağlı olan layihələr icra edilməlidir. Kənd təsərrüfatında məhsuldarlığın artımı gündəlikdə duran əsas məsələlərdən biridir. Hesab edirəm ki, bu il biz rekord göstəriciyə nail olmuşuq. Taxılçılıqda orta məhsuldarlıq hər hektardan 32 sentner olubdur. Bu, son illər ərzində ən yüksək nəticədir və daha da artacaq. Pambıqçılıqda hələ ki, yığım başa çatmayıb, az qalıb, amma artıq hektardan 29 sentner pambıq götürmüşük. Pambıqçılar yaxşı bilirlər ki, Azərbaycan tarixində cəmi üç, ya dörd il məhsuldarlıq 30 sentnerə yaxın, yaxud da ondan çox olmuşdur. Onlardan biri də 2019-cu ildir. Ona görə kənd təsərrüfatı, xüsusilə indi, - əlbəttə, bu, Hacıqabul rayonuna aiddir, - inkişaf etməlidir.

Naftalan şəhərini müasir kurort mərkəzinə çevirmək cəhdlərimiz, hesab edirəm ki, çox uğurludur. Mən Prezident kimi ilk dəfə Naftalana gələndə ürəyim ağrıdı, çünki gördüm, demək olar ki, şəhər dağılmış vəziyyətdədir. İnfrastruktur yox, işıq yox, qaz yox, su yox, yollar bərbad. Sovet vaxtında tikilmiş sanatoriyalar dağılmış və şəhərdə minlərlə köçkün məskunlaşmışdı, onların da vəziyyəti çox ağır idi. Ona görə göstəriş verdim və tapşırdım ki, vəsait ayrılsın. İlk növbədə, biz köçkünləri köçürdük və onlar üçün gözəl evlər tikdirdik. Ondan sonra investorları cəlb etdik və onlar investisiya qoymağa başladılar. Bununla paralel olaraq, Naftalan şəhərindəki bütün hündürmərtəbəli binalar əsaslı şəkildə təmir olundu, yeni parklar salındı, mərkəzi şəhər xəstəxanası, beşulduzlu üç otel - "Çinar", "Qarabağ" və "Qaşaltı" açıldı. Bütün açılışlarda mən şəxsən iştirak etmişəm. Hazırda dördulduzlu və üçulduzlu otellərin tikintisi davam etdirilir. Sovet vaxtında Naftalana hər il müalicə üçün 70 min adam gəlirdi. Biz indi bu hədəfə doğru gedirik. Artıq təqribən 30-40 min insan gəlir dincəlməyə və müalicə almağa. Naftalanı beynəlxalq turizm mərkəzi kimi inkişaf etdirmək bizim başlıca vəzifəmizdir. Şəhər İcra Hakimiyyəti bu işlərə böyük diqqət verməlidir. Naftalanda yaşayan vətəndaşların mütləq əksəriyyəti xidmət sektorunda fəaliyyət göstərir.

Bir sözlə, sizə göstərilən bu etimad doğrudan da sizin üçün böyük avansdır. Çünki indiki şəraitdə kadrlara qarşı tələbkarlıq artır. Kadrlar qarşısında çox ciddi vəzifələr qoyulur, xüsusilə pozuntularla bağlı, rüşvətxorluq, korrupsiya sıfır dərəcəsində olmalıdır. İnvestorları incitməməlisiniz, əksinə, onlara kömək göstərməlisiniz, onları cəlb etməlisiniz ki, vətəndaşlar sizin işinizdən razı qalsınlar. Əgər vətəndaşlar razı olsalar, - atalar sözü var, "Xalqın gözü tərəzidir", - mən də razı olacağam və sizin fəaliyyətinizə yüksək qiymət verəcəyəm. Yox əgər mənim etimadımı doğrultmasanız, onda sizi çox ciddi cəza gözləyir. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və müasir dövrün tələblərinə cavab verərək rəhbərlik edəcəyiniz Naftalan şəhərinin, Hacıqabul rayonunun inkişafına öz töhfənizi verəcəksiniz.

**"Bu təşəbbüslər, o cümlədən, bizim hökumətlərarası iqtisadi əməkdaşlığımıza yeni bir mövzu - innovasiyalar və yüksək texnologiyalar mövzusu əlavə edilməsinə aiddir, xüsusi yol xəritəsi yaradılacaq. Artıq bir neçə gündən sonra Hökumətlərarası Komissiya bu sahədə işlərin vəziyyətini nəzərdən keçirəcək". Bunu Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü zamanı deyib.**

*"Bizim hazırda nanoparklarımız var, innovativ layihələr kifayət qədərdir"*

# Mehriban Əliyevanın səfərindən sonra Rusiya-Azərbaycan münasibətlərində yeni - innovasiyalar istiqamətinin açıldığını Lavrov da təsdiqlədi...

## **Fuad İbrahimov:** *"Azərbaycanla Rusiya arasında innovasiyalar və yüksək texnologiyalar sahəsində əməkdaşlığın qurulması müsbət perspektiv vəd edir"*

Onun sözlərinə görə, Mehriban Əliyevanın bu günlərdə Rusiyaya səfər etməsini yüksək qiymətləndiriblər: "Biz Mehriban Əliyevanın Rusiya Federasiyasına səfərini, onun Prezident Putinlə, Baş nazir Medvedyevlə, Federasiya Şurasının sədri Matvienko ilə görüşlərini, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun çox mühüm açılış mərasimində, Regionlararası Forumda iştirakını yüksək qiymətləndirmişik və bu səfərin gedişində müzakirə edilən təşəbbüsləri biz hökmən həyata keçirəcəyik".

S.Lavrov onu da qeyd edib ki, iki ölkə arasında əmtəə dövriyyəsi sürətlə artır. Rusiya Federasiyasının Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarının həcmi 1,5 milyard dollar olub. Ölkənin 70-dən çox subyekti Azərbaycanla əməkdaşlıq edir.

Görünən odur ki, bundan sonra iki ölkə arasında innovasiyalar və yüksək texnologiyalar sahəsində də əlaqələr genişlənəcək. Birinci vitse-prezident Mehriban Əliyevanın Moskva səfəri zamanı bununla bağlı önəmli razılıq əldə olunub.

Ümumilikdə, ekspertlər sözügedən sahədə iki ölkə arasında əlaqələrin qurulmasına necə yanaşırlar?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, iki ölkə arasında bu sahədə əməkdaşlığın qurulması müəyyən perspektivlər vəd edir: "Məsələ ondadır ki, dünya ölkələrində innovasiyalar, nanotexnologiyalarla bağlı tədqiqatlarda Rusiyadan olan alimlərə xüsusi önəm verilir. Rusiyanın bu




sahə üzrə mütəxəssislərinin dünyada xüsusi çəkisi var. Yəni bu nöqteyi-nəzərdən Azərbaycanla Rusiya arasında innovasiyalar və yüksək texnologiyalar sahəsində əməkdaşlığın qurulması müsbət perspektiv vəd edir. Hazırda Rusiyada nano və informasiya texnologiyaları ilə bağlı perspektivli tədqiqatlar gedir. Çünki həqiqətən də Rusiya ərazisində bu qəbildən görüləcək işlər kifayət qədərdir. Nəzərə almaq lazımdır ki, dünyada iqtisadiyyatın bütün sahələrində modernləşdirmə və yeniliklər gedir. O cümlədən, Rusiyada bu proses gedir. Bu nöqteyi-nəzərdən Rusiya ilə Azərbaycan arasında bununla bağlı əməkdaşlığın qurulması faydalı olacaq. Buna həm də ona görə müsbət baxıram ki, Azərbaycan da qeyri-neft sektorunun inkişafına xüsusi önəm verir. Bizim hazırda nanoparklarımız var, innovativ layihələr kifayət qədərdir. İstər İKT, istərsə də digər sahələrdə innovativ layihələrə üstünlük verilir. Bu baxımdan Rusiya ilə ba sahədə əməkdaşlıq vacibdir".

***Vidadi ORDAHALLI***

**Azərbaycanın və Rusiyanın Xarici İşlər nazirləri Elmar Məmmədyarov və Sergey Lavrovun görüşündə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, iki ölkə arasında əməkdaşlıq, eləcə də beynəlxalq və regional məsələlər barədə müzakirələr aparılıb.**



# Ermənistan Bratislavada predmetli danışıqlara məcbur edildi...(?)

## **Qabil Hüseynli:** *"Bratislavadakı predmetli danışıq deyəndə müzakirələrin 5 rayon üzərində aparılacağını təxmin etmək olar"*

Elmar Məmmədyarov görüşdən sonra bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar dalana dirənib: "Hazırda Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlarda durğunluq vəziyyəti yaranıb".

Məmmədyarov qeyd edib ki, münaqişə mərhələli şəkildə həll olunmalıdır: "İlk növbədə, əlbəttə ki, ordu kazarmalara qayıtmalıdır, çöldə olmamalıdır. Daha sonra qaçqınların qaytarılması, iqtisadi imkanların və yolların təcrid olunmasının aradan qaldırılması barədə düşünmək olar".

Elmar Məmmədyarov deyib ki, Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin dekabrın 4-də Bratislavada Dağlıq Qarabağla bağlı predmet danışıqlara başlayacağı gözlənir. Nazir qeyd edib ki, Ermənistanın XİN rəhbəri təhlükəsizlik barədə məsələni qaldırmaq niyyətindədir: "Bizim və Ermənistanın anlayışında təhlükəsizlik nədir? İlk növbədə silahlı qüvvələr kazarmalara qayıtmalıdır. Bəli, təhlükəsizlik vacibdir. Amma həm də Azərbaycan və onun Qarabağdakı əhalisi üçün. Biz həmsədrlərə vəziyyətin dəyərləndirilməsi və təhlükəsizlik məsələsinin həll olunması üçün məruzənin hazırlanması ilə bağlı müraciət etmişik. Bunun üçün ciddi predmet danışıqlar lazımdır. Erməni həmkarımla Bratislavada görüşdən gözləntilər ondan ibarətdir ki, biz irəli getməliyik".

Göründüyü kimi, Elmar Məmmədyarov Bratislavada Ermənistanla predmetli danışıqlar aparılacağını qeyd edir. Bundan belə nəticəyə gəlmək olarmı ki, Ermənistan işğal altında olan ərazilərin boşaldılması ilə bağlı konkret addım atmağı düşünür?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, müxtəlif terminləri icad edib danışmağa elə bir ehtiyac görmür: "Bunu xalqa bir qədər sadə dildə başa salmaq lazımdır. Bir vaxtlar substantiv danışıqlar deyirdilər. İndi də predmetlidən danışırlar. Adını nə qoyurlarsa qoysunlar, amma ortada nəticə olmalıdır. Lavrov Bakıya elə-belə gəlməyib. Rusiya Dağlıq Qarabağ probleminin həllində inhisarçı mövqeyini vermək istəmir. Ona görə də Lavrov qarşılıqlı kompromislərdən danışdı. Kompromis deyəndə Ermənistan heç də bütün rayonları yox, 5-ni qaytarmaq istəyir. Azərbaycandan bu kompromis tələb oluna bilər. Bizə 350 milyard dollarlıq ziyan dəyib. Biz nəyi güzəştə gedə bilərik? Rusiyanın dəstəyilə Ermənistan Dağlıq Qarabağı, Kəlbəcəri və Laçını qaytarmaq istəmir. Bratislavadakı predmetli danışıq deyəndə müzakirələrin 5 rayon üzərində aparılacağını təxmin etmək olar. Azərbaycan tərəfi ilkin variantda buna razı olsa da, rusların da şərti olacaq ki, Dağlıq Qarabağda rus qoşunları yerləşsin. Kifayət qədər inandırıcı olmayan bəyanatlar verilir. İstəyimiz budur ki, onun dedikləri çin çıxsın və Bratislavada predmetli danışıqlar fonunda torpaqlarımızın işğaldan azad edilməsi prosesinə start verilsin. Son vaxtlar bu istiqamətdə Rusiyanın fəallığı nəzərə çarpır. Özü də Rusiya bu məsələdə beynəlxalq vasitəçiləri nəzərə almadan, öz istəyinə uyğun şəkildə hərəkət edir".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycanda islahatların aparılması göz önündədir. Əslində, daimi aparılan islahat kursu bu il daha geniş sahələri əhatə etməyə başlayıb. Struktur və kadr islahatına vətəndaşlar rəğbətlə yanaşırlar. Hiss edilir ki, ölkədə həyata keçirilən bu yeniləşmə kursuna demokratik ölkələr də böyük dəyər verirlər.**

# Azərbaycanda kadr islahatlarını ləkələmək istəyən "erməni variantı" - klanlararası mübarizənin nəticəsi...

## *Samir Adıgözəlli: "Yaydıqları dezinformasiyanı Azərbaycan dilində bizim izləyicilərə oxudurlar"*



Çünki bir sıra bəyantlarda buna edilən işarələr nəzərə çarpır.

İslahatlara erməni mediasının özünəməxsus tərzdə verdiyi reaksiya və bu yöndə apardıqları təbliğat maraqlı görünür. Erməni KİV-nin verdiyi aqressiv reaksiyadan bu qənaətə gəlmək olar ki, onlar ciddi narahatlıq keçirirlər. Azərbaycanda gedən yeniləşməni isə islahat yox, "klan mübarizəsi" kimi qələmə verməklə onlar hansı hədəflərə çatmaq istəyirlər?

İctimai-Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin bu narahatlığı başadüşüləndir: "Bilirsiniz ki, düşmən ölkə həmişə rəqibinin zəif olmasını istəyər. Bu heç də belə anlama gəlməsin ki, Azərbaycan hazırda zəif durumdadır. İndi vəziyyətdə belə Azərbaycan onlardan qat-qat güclüdür. Bizdə gedən islahatların mahiyyəti belə izah olunur ki, idarəetmə aparatının gəncləşməsi ölkənin daha da inkişaf etdirilməsinə hesablanıb. Həyata keçirilən bütün tədbirlər ölkənin dinamizmini artırır. Ermənilər bunu diqqətlə izləyirlər. Ona görə də prosesə ləkə yaxırlar. Məsələnin başqa bir tərəfi isə ideoloji mübarizə ilə bağlıdır. Bu da informasiya vasitəsilə həyata keçirilir. Fikir versəniz görərsiniz ki, ermənilərə məxsus KİV daim ölkədəki milli və regional münasibətlərin qızışdırılmasına meyl edir. Çünki bu, həssas məsələdir. Mən yaxından izləyirəm ki, onlar sosial şəbəkələrdə də aktiv fəaliyyət göstərirlər. Azərbaycan dilində yaydıqları informasiyaları pullu reklama qoyub, bizim seqmentə istiqamətləndirirlər. Bilirsiniz ki, sosial şəbəkələrdə belə bir funksiya var. Yəni auditoriyanı seçə bilirsən. Onlar da auditoriya kimi Azərbaycanı seçirlər. Yaydıqları dezinformasiyanı Azərbaycan dilində bizim izləyicilərə oxudurlar.

*"Ermənilərin islahatlara ləkə atmaq cəhdi xarici aləmə bunu yanlış təqdim etmək, daxilimizdə isə münasibətləri qızışdırmaqdan ibarətdir"*

Böyük əksəriyyət heç məlumatın ermənilər tərəfindən yayıldığının fərqinə vara bilmir. Bu yöndə əsasən Ermənistanın ictimai radiosunun saytı aktiv fəaliyyətdədir. Onların saytına nəzər yetirsəniz görərsiniz ki, Azərbaycan dilində aktiv xəbər istehsal edirlər. Ermənilərin islahatlara ləkə atmaq cəhdi xarici aləmə bunu yanlış təqdim etmək, daxilimizdə isə münasibətləri qızışdırmaqdan ibarətdir".

*Məhəmmədəli QƏRİBLİ*

**Artıq neçə gündür diqqətlər Bratislavada ATƏT XİN başçılarının zirvə görüşü çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla erməni həmkarı Zöhrab Mnatsakanyan arasında keçiriləcək görüşə yönəlib. Görüşdə ATƏT-in Minsk Qrupunun həmsədrləri də iştirak edəcəklər.**

# Məmmədyarovla Mnatsakanyanın Bratislava görüşü ermənilər üçün niyə son şans kimi dəyərləndirilir?

## *İbrahim Rüstəmli: "Proseslərin gedişində hər şey mümkündür"*

*"Fürsət yaranan kimi, torpaqlarımızı işğaldan azad edəcəyik"*

Bu arada Bakıda ikigünlük səfərdə olan Rusiyanın baş diplomatı Sergey Lavrov da iki ölkə XİN rəhbərinin Bratislava görüşündən söz açıb: "Biz bundan sonra da ortaq mövqelərimizin dəstəklənməsinə, Azərbaycan və Rusiya üçün xüsusi maraq doğuran mühüm məsələlərin həllinə kömək edəcəyik. Bu, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına aiddir".

Bratislava görüşü Qarabağ mövzusu üzrə bu il üçün sonuncu olacaq. Əfsuslar olsun ki, 2019-cu il itirilmiş fürsətlər ili oldu. Konfliktin dinc həll prosesini irəli apara biləcək heç bir ciddi təşəbbüslə, yeniliklə yadda qalmadı. Bakının israr etdiyi substantiv danışıqlar üçün zəmin yaranmadı. Beləcə, torpaqlarımızın işğalı daha bir il uzandı. Vəziyyətin bu cür davam etməsi, nizamlanma prosesinin dalana girməsi, şübhəsiz ki, Ermənistanın danışıqlarda qeyri-konstruktiv mövqeyi ilə bağlıdır. Ancaq Azərbaycan, əlbəttə ki, öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq və sülh danışıqlarının səmərə verməməsi fonunda, ilk fürsətdəcə özünün ərazi bütövlüyünü hərbi yolla bərpa edəcək. Təsadüfi deyil ki, bir sıra ekspertlər Bratislava danışıqlarını ermənilər üçün son şans hesab edirlər. Yəni bu dəfə də nəticə olmasa, o zaman hərbi əməliyyatların başlaması qaçılmaz olacaq.

Maraqlıdır, bəs ekspertlər bu baxımdan Bratislava danışıqlarını necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin fikrincə, proseslərin gedişində hər şey mümkündür: "Əvvəla Azərbaycan dövlətinin Qarabağ məsələsi ilə bağlı prinsipial mövqeyini dəstəkləyirəm və bunu çox böyük uğurlu addım kimi qiymətləndirirəm. Biz bu məsələdə heç vaxt ruhdan düşməməli və daim aktiv fazada mübarizə aparmalıyıq. Çünki bu mübarizənin də bir nəticəsi olacaq inşallah. Ona görə ki, heç bir cəhd cavabsız qalmır. Bəziləri iddia edirlər ki, guya Azərbaycan dövlətinin Qarabağ danışıqları ilə bağlı sərgilədiyi mövqe uğursuzdur. Mən bu cür fikirlərlə razı deyiləm. Qarabağ danışıqları ilə bağlı Azərbaycanın atdığı addımlar uğura doğrudur. Müəyyən hədəflərə, məqsədlərə çatmaq üçün bu addımlar atılır. Hər bir cəhdimiz məqsədə doğru bizi bir addım yaxınlaşdırır. Ona görə də bu mənada çox optimistəm. Düşünürəm ki, biz bu istiqamətdə cəhdlərimizi daha yeni və fərqli məzmunlarda təqdim etməliyik. Bütün



bunlar da, heç şübhəsiz, nəticəsiz qalmayacaq. Qarabağ məsələsi ilə bağlı Azərbaycanın mövqeyi aydındır. Dolayısı ilə Paşinyan hakimiyyətinin də mövqeyi aydındır.

Ancaq bu məsələdə Azərbaycanı daha öncül mövqedə saxlayan bir sıra məqamlar var. Məsələ ondadır ki, Dağlıq Qarabağdakı separatçı rejimin "müstəqilliyini" Ermənistan da daxil olmaqla heç bir dövlət tanımayıb. Lokal müstəvidə ermənilər buna cəhdlər edir, amma ciddi nəticəyə nail ola bilmirlər. Beynəlxalq qurumların bu məsələdə verdiyi qərarlar bizim xeyrimizədir. Deməyim odur ki, Azərbaycan sonsuza qədər torpaqların işğal altında qalması ilə barışmayacaq. Fürsət yaranan kimi, torpaqlarımızı işğaldan azad edəcəyik".

*Vidadi ORDAHALLI*

# Lavrovun səfərinin nəticələri Ermənistana daha bir zərbə vurdu - Qarabağ icmalararası danışığı istəməyən tək ermənilərdir...

**Rusiya Xarici İşlər naziri Sergey Lavrov Dağlıq Qarabağ icmaları arasında əlaqələrin bərpasını alqışlayıb. Bu barədə o, Bakıda azərbaycanlı həmkarı Elmar Məmmədyarovla danışıqlarının yekunlarına həsr edilmiş mətbuat konfransında bildirib.**




"Dağlıq Qarabağ icmaları arasında əlaqələrin tərəfdarıyam", - deyə Lavrov Azərbaycan və Ermənistandan jurnalistlərin bu yaxınlarda baş tutmuş qarşılıqlı səfərlərini şərh edərkən bildirib.

Lavrovun sözlərinə görə, Rusiya bu təşəbbüsün müəlliflərindən biri idi. Onun fikrincə, istənilən qərar bu torpaqlarda yaşayan insanlar tərəfindən qəbul edilməlidir: "Mən icmalar arasında əlaqələrin, onların bərpa edilməsinin tərəfdarıyam. Onsuz da, nəticə etibarilə, Qarabağ əhalisi necə yaşayacağına qərar verməli olacaq".

Onu da qeyd edək ki, Azərbaycan da icmalar arasında danışıqların aparılmasının tərəfdarıdır. Bunu dəfələrlə bəyan edib. Bu günlərdə Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri Tural Gəncəliyev bəyan etdi ki, onlar

## *Arzuxan Əlizadə: "Ermənilər hər vasitə ilə Dağlıq Qarabağın azərbaycanlı icmasını danışıqlara yaxın buraxmaq istəmirlər"*

erməni icması ilə danışıqlara hazırdır. Onun fikrincə, belə bir təklif olarsa, icma qarşı tərəflə dialoq apara bilər: "Jurnalistlərin qarşılıqlı səfərləri danışıqlar prosesi üçün də çox əhəmiyyətli idi. Bu prosesin davam etdirilməsi irəliləyişə səbəb ola bilər. Əgər bu proses çərçivəsində azərbaycanlı və erməni icmalarının görüşü, qarşılıqlı səfərləri təklif edilərsə, biz bu görüşə, dialoqlara hazırıq və bu təklifi dəstəkləyirik".

Görünən odur ki, burada Rusiya ilə yanaşı, Azərbaycan da iki icma arasında danışıqların aparılmasının tərəfdarıdır. Bircə Ermənistan bu prosesdən hər vasitə ilə yayınır.

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, icmalar arasında danışıqların yeganə əleyhdarı Ermənistandır: "Ermənistanın hazırkı rəhbərliyi bütün vasitələrlə çalışır ki, separatçı qurum Qarabağ danışıqlarında tərəf kimi iştirak etsin. Bunun yolverilməz olduğu məlumdur. Bu səbəbdən həm Azərbaycan, həm də həmsədrlər Paşinyanın sözügedən təkliflərini qəbul etmirlər. Azərbaycan dəfələrlə bəyan edib ki, Qarabağdakı erməni icması ilə azərbaycanlı icması arasında danışıqlar mümkündür. Ancaq ermənilər hər vasitə ilə Dağlıq Qarabağın azərbaycanlı icmasını danışıqlara yaxın buraxmaq istəmirlər. Yaxşı olardı ki, Sergey Lavrov məhz bu məqama diqqəti yönəltsin. Ən başlıcası, Rusiya bu yöndə ermənilərə kifayət qədər təsir rıçaqına malikdir. Təəssüflər olsun ki, Kreml bu imkanlardan istifadə etmir.

*"Yaxşı olardı ki, Sergey Lavrov məhz bu məqama diqqəti yönəltsin"*

**Hansı ki, hazırkı məqamda bu çox vacib məsələdir. Lavrov qeyd etdi ki, Rusiya icmalar arasında danışıqların aparılması təşəbbüsünün müəlliflərindən biridir. Belədirsə, o zaman niyə qarşı tərəfə bu yöndə təsir etmir? Ona görə də Rusiya Xarici İşlər nazirinin bununla bağlı səsləndirdiyi fikirlər o qədər də səmimi deyil. Səmimi olsaydılar, o zaman bunun reallaşması üçün əməli səy göstərərdilər".**

***Vidadi ORDAHALLI***

# Lavrovun Bakı görüşlərinin daha bir nəticəsi - Paşinyanın Bişkekdə "Azərbaycana silah satmayın" çağırışı yerə düşdü...

**Bu yaxınlarda Bişkekdə keçirilən KTMT-nin tədbirində Ermənistan Baş naziri Nikol Paşinyan quruma üzv olan dövlətlərə müraciət edərək demişdi ki, onların Azərbaycana silah satmaları müttəfiqlik münasibətlərinə xələl gətirir.**



Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Bakıda keçirdiyi son görüşlərin nəticəsi ilə bağlı verdiyi açıqlamadan görünür ki, iki ölkə arasında hərbi əməkdaşlıq bundan sonra da davam etdiriləcək: "Azərbaycan Prezidenti ilə çox məzmunlu görüş keçirdik. Görüşün yekunlarına görə çox əhəmiyyətli razılaşmalar əldə olunub. Beynəlxalq gündəlik haqqında, habelə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq haqqında danışdıq. Həmçinin, Xəzərdə əməkdaşlığı, əməkdaşlığın gücləndirilməsi üçün səylərin əlaqələndirilməsini müzakirə etdik. İqtisadiyyatla bağlı ilin yekunlarına görə 15%-ə yaxın artım gözlənir. Humanitar əməkdaşlığa gəlincə, burada da artım müşahidə olunur".

Daha sonra o, tərəflərin hərbi-texniki əməkdaşlığının əhəmiyyətini qeyd edib. "Yalnız onu qeyd edə bilərəm ki, hərbi-texniki əməkdaşlıq Moskva və Bakı arasında strateji tərəfdaşlığın mühüm sahələrindən biridir. Hərbi-texniki əməkdaşlığı beynəlxalq qanunvericiliyə tamamilə uyğun şəkildə inkişaf etdiririk".

## *Daşdəmir Əliyev: "Lavrovun son səfəri zamanı əldə olunan razılaşmalardan bir daha göründü ki, Paşinyanın dediklərinə heç əhəmiyyət verən yoxdur"*

Bunun ardınca Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov, öz növbəsində, əlavə edib ki, bu sahədə əməkdaşlıq həmişə gündəlikdə olub: "Müəyyən ideyalar var. Sövdələşmə olan kimi KİV-ə məlumat verəcəyik".

Göründüyü kimi, Azərbaycan rəsmisi Rusiyadan yeni silah tədarükünün anonsunu verib. Bu nəticəyə gəlmək olarmı ki, Paşinyanın KTMT-də etdiyi çağırışa Rusiya heç bir məhəl qoymadı?

Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Rusiyanın Azərbaycana silah satması hər hansı bir qanunla, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının heç bir norma və qaydaları ilə qadağan edilmir: "Ermənistan hər zaman KTMT-ni birtərəfli qaydada bu prosesə qoşmaq istəyib, ancaq qurumun adından verilən bəyantlarda bunun mümkünsüzlüyü qeyd edilib. Ermənilər Rusiyanın və Belarusun KTMT üzvü kimi Azərbaycana silah satmasından narahatlıqlarını ifadə ediblər. Ancaq iş burasındadır ki, Ermənistanın özü də həmin ölkələrdən silah alır. Onların tələbu budur ki, İrəvana silah satılsın, ancaq Azərbaycana yox. Paşinyan bu tələbi dəfələrlə edib, hər dəfə də cavabını alıb. Erməni jurnalistlər bununla bağlı Putinə də sual ünvanladılar, o da konkret cavab verdi ki, bu, Rusiyanın öz işidir. Lukaşenko da dedi ki, həmin silahlar açıq satışdadır, istəsə, Ermənistan da ala bilər. Azərbaycan son illər büdcəsinin əhəmiyyətli hissəsini silah-sursat, hərbi təyinalı avadanlıqların alınmasına xərcləmək zorunda qalıb. Bunu xoşundan etmir. Çünki Ermənistanın işğalçı siyasəti bizi müharibə şəraitində yaşamağa vadar edir. Dünyada ən gəlirli bizneslərdən biri silah satışıdır.

**Bununla dünyada inkişaf etmiş ölkələr məşğul olurlar. Hər bir silah istehsalçısı istəyər ki, onun daimi müştərisi olsun. Yəni Rusiya bunu etməzsə, Azərbaycan başqa ölkələrin silah satışı təkliflərini nəzərdən keçirə bilər. Onsuz da Azərbaycan silah alışını şaxələnmiş şəkildə həyata keçirir. Yəni bir ölkədən almır. Lavrovun son səfəri zamanı əldə olunan razılaşmalardan bir daha göründü ki, Paşinyanın dediklərinə heç əhəmiyyət verən yoxdur".**

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan uğursuz futbolçu Mxitaryanı Bakıya qoymurdu, indi vəzifəli erməni məmurları özü şəxsən göndərir...

**Ermənistanın Baş naziri Nikol Paşinyanın qərarı ilə bu ölkənin nümayəndə heyəti Azərbaycana gələcək. Erməni mətbuatının verdiyi məlumata görə, nümayəndə heyətinə Ərazi idarəetmə və infrastruktur nazirinin müavini Armen Simonyan, Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyinin Yol nəqliyyat siyasəti idarəsinin şöbə müdiri Arman Karapetyan və Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsi Artem Aznauryan daxildir.**



## *Nəzakət Məmmədova: "...bu məkrli plana xidmət edən taktiki gedişlərdir"*

Onlar 4-7 dekabr tarixlərində TRASEKA-nın Bakıda keçiriləcək 14-cü iclasında və qurumun 20 illiyinə həsr olunmuş konfransda iştirak edəcəklər.

Çox maraqlıdır ki, bu məsələdə də Paşinyanın ikiüzlü siyasəti nəzərə çarpır. Öz istəyilə rəhbər şəxsləri Bakıya göndərən Paşinyan onların təhlükəsizliyi ilə bağlı heç bir təhlükənin olmayacağından əmindir. Onda isə niyə "Arsenal" klubunun uğursuz erməni əsilli oyunçusu Mxitaryana Bakıda oyun keçirməməyi məsləhət gördürdü. Paşinyan həmiz saxta kampaniyada çox yaxından iştirak etdi.

Hətta xarici nəşrlərə verdiyi açıqlamalarda Mxitaryanın Bakıya "gedə bilməməsini" ermənifobiyanın nümunəsi kimi qələmə verməyə çalışırdı. Bu iki hadisə arasındakı ziddiyyət nəyin əlaməti sayıla bilər?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın məkrli, həddən artıq makiavelist diplomatiya strategiyası bizə hamıdan daha yaxşı məlumdur, çünki biz illərdir onun əziyyətini çəkirik: "Lazım gəldikdə təkbaşına bir şəxsin xidmətindən yararlanaraq, destruktiv planlarını həyata keçirən erməni diplomatiyası Kardaşyan, Mxitaryandan istifadə etsədə, zərurət yarandıqda özünü sivil dünyaya inteqrasiya edən dövlət kimi göstərməyə çalışır. Erməni diplomatiyası bu zaman öz yırtıcı, məkrli xislətini hüquqa tabe olan, müasir, sivil dünyanın bir parçası olan dövlət kimi ört-basdır etməyə çalışır. Ermənistana həmin vaxt nə lazımdırsa, diplomatiya o rola girir və həmin plana uyğun hərəkət edilir.

**TRASEKA-da iştirak ermənilərə lazım olduğu üçün, bu zaman Azərbaycanda təhlükəsizliklərinə təhdid bəhanəsini arxa plana atırlar. Halbuki, nəinki bir futbolçunu, yeri gəldikdə onun idman karyerasını öz ambisiyalarına qurban vermək, bütöv bir ölkənin əhalisini səfalət həddində saxlamaq baş verir, necə ki, bu, hazırda Ermənistanda cərəyan edir.**

Sadəcə, Ermənistan diplomatiyası strateji planlardan əlavə, situasiyaya uyğun taktika da həyata keçirir. Strateji plan "böyük Ermənistan"dırsa, Mxitaryan, TRASEKA və s. bu məkrli plana xidmət edən taktiki gedişlərdir. Azərbaycanın beynəlxalq imicini korlamaq üçün Mxitaryandan istifadə edilsə də, TRASEKA kimi nəhəng layihədən kənarda qalmamaq, eyni zamanda, sivil, demokratik dövlət imicinin formalaşması üçün burada iştirak lazım oldu və Paşinyan bu cür qərar verdi".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənilərə "qucaq açan müsəlman dövlətlərinin" özünüifşası davam edir - Kral Hüseyn İrəvana gedir

**Son dövrlər bir sıra ərəb ölkələrinin Ermənistana göstərdikləri xüsusi yaxınlıq anlaşılan deyil. Məsələ ondadır ki, bəzi ərəb ölkələrinin Ermənistana marağı artıb. Qarşılıqlı rəsmi və işgüzar səfərlər çoxalıb. Bundan əvvəl Livan və Suriya Ermənistanla xüsusi isti münasibətlər qurmuşdular və indi də tərəflər arasında münasibətlər yüksək səviyyədədir.**



## *Məhəmməd Əsədullazadə: "Ermənistan çalışır ki, iradəcə zəif ərəb monarxlarını öz tərəfinə çəksin"*

İndi isə Birləşmiş Ərəb Əmirliyi və İordaniya bu yöndə xüsusi fəallıq göstərir. Belə ki, İordaniya kralının yaxın zamanda Ermənistana səfər edəcəyi gözlənir. Erməni mətbuatının yazdığına görə, bunu Ermənistanın parlament sədri Ararat Mirzoyan ilə görüş zamanı bu ölkəyə rəsmi səfərə gələn İordaniya Haşimilər Krallığının xarici işlər və miqrasiya naziri Ayman Səfadi bildirib.

O da məlumdur ki, Azərbaycan dəfələrlə bəyan edib ki, Ermənistandan müsəlman ölkələrə dost olmaz. Bu günlərdə Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illiyinə həsr edilmiş mərasimdəki çıxışı zamanı Ermənistanla qucaqlaşan müsəlman ölkələrini qınayıb. Prezident belə ölkələrin hərəkətlərini riyakarlıq adlandırıb: "Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar? Necə belə riyakarlıq etmək olar?".

Görünən odur ki, bəzi müsəlman ölkələri Ermənistanla yaxınlıq edərək özlərini ifşa edirlər. İordaniya kralının Ermənistana səfərə hazırlaşması buna növbəti əyani sübutdur.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, son illər Ermənistanla ərəb ölkələri arasında sıx siyasi təmaslar sözügedən müsəlman ölkələrinin İslam Əməkdaşlıq Təşkilatında tutduqları mövqe ilə ziddiyyət təşkil edir: "Ermənistanın Qətərlə siyasi-iqtisadi əlaqələri inkişaf etdirməsi, ardınca İordaniya ilə bu əlaqələrə başlaması həqiqətən müəyyən sualları doğurur. Azərbaycan kifayət qədər çalışır ki, müsəlman ölkələri ətrafında birləşdirsin və Ermənistana qarşı cəbhə formalaşdırsın. İslam Əməkdaşlıq Təşkilatında buna nail olub. Ancaq bəzi ərəb ölkələrinin diversant şəklində Ermənistanla əlaqələrə önəm verməsi öz siyasi dəyərlərinə qarşı çıxmaq deməkdir. Demək, Ermənistan Azərbaycanın bu istiqamətdə siyasətini neytrallaşdırmağa çalışır. Müsəlman ölkələri ilə əlaqələri inkişaf etdirir. Məhz Paşinyan İordaniya kralı ilə görüşdə Qarabağ münaqişəsinin dini bir münaqişə olmadığını qeyd etdi. Ermənistan çalışır ki, iradəcə zəif ərəb monarxlarını öz tərəfinə çəksin. Bu zəif monarxlar da, göründüyü kimi, islam dəyərlərinin ziddinə gedərək Qarabağda islam abidələrini yerlə yeksan edən bir ölkə ilə əməkdaşlıq qururlar.

> *"Bu zəif monarxlar da, göründüyü kimi, islam dəyərlərinin ziddinə gedərək Qarabağda islam abidələrini yerlə yeksan edən bir ölkə ilə əməkdaşlıq qururlar"*

Hesab edirəm ki, Qafqaz Müsəlmanları İdarəsi ərəb ölkələri ilə əlaqələri sıxlaşdırıb bu istiqamətdə fəaliyyət göstərməlidir. Azərbaycan da İordaniya və Qətərlə diplomatik əlaqələri gücləndirib bu əməkdaşlığın qarşısını almalıdır. Onlara Ermənistanın islam ocaqlarında vandalizm siyasəti apardığını çatdırmalıdır. Hərçənd, Prezident İlham Əliyev çıxışlarında bunu dəfələrlə bəyan edib. Ancaq çox təəssüflər olsun ki, bəzi ərəb ölkələri bunu görməzdən gəlir".

***Vidadi ORDAHALLI***

**Ermənistanda çiçəklənən faşizmə Azərbaycan tərəfindən vurulan zərbə düşmən ölkədə hələ də şok effekti yaratmaqda davam edir. Bu xüsusda əsas diqqət çəkən başlıca məqam nasist cinayətkarı Qaregin Njdenin xatirə lövhəsinin sökülməsindən sonra İrəvanda tanınmış rus dramaturq, yazıçı və diplomat Aleksandr Qriboyedovun heykəlinin üstünə boya tökülərək təhqir edilməsidir.**

# Faşist Njdedən sonra Rusiyada daha üç daşnakın xatirə lövhəsi söküldü - İrəvandakı rus səfirliyi əhatəyə alındı...



Məsələni şərh edən ekspertlər bildirir ki, baş verənlər Rusiya və Ermənistan arasında növbəti gərginliyin təzahürü, iki ölkənin münasibətlərində yeni çatların göstəricisidir.

Digər tərəfdən belə görünür ki, olaylar yaxın tezlikdə rəsmi müstəvidə də ciddi çəkişmə predmeti olacaq. İlk növbədə o baxımdan ki, Qriboyedovun heykəlinin üstünə boya tökülərək təhqir edilməsinin ardınca Rusiyanın Ermənistandakı səfirliyi də millətçi ermənilər tərəfindən mühasirəyə alınıb və burada Kreml əleyhinə çoxsaylı fikirlər səslənib. Məsələ ilə bağlı "armenianreport" portalı yazır ki, Rusiyaya qarşı fəaliyyət bundan sonra da davam etdiriləcək və Qriboyedovun heykəlinin üstünə boya tökən Şaqen Arutunyan bununla ermənilərin Rusiyaya qarşı qəzəbəini ifadə edib.

Xatırladaq ki, Qriboyedovun heykəlinin üstünə boya tökən Şaqen Arutunyan Nikol Paşinyanın sədri olduğu "Mənim addımım" hakim fraksiyanın deputatı Yercanik Akopyanın köməkçisi olub. Onun hərəkəti isə erməni gəncliyinin faşizm ruhunda tərbiyə edildiyini bir daha sübut edir. Elə Nikol Paşinyanın Njdeni can-dillə müdafiə edib ondan sovet xalqlarının xilaskarı obrazını yaratmağa cəhd göstərməsi də bu tərbiyənin nəticəsidir. Onun partiyasının nümayəndəsi isə özünü bir faşistin davamçısı sayaraq ermənilərin Qafqazda torpaq sahibi olmaları üçün canından keçmiş rusiyalının abidəsinə qarşı təhqiredici addım atır. Baş verən hadisəni Ermənistan parlamenti sədrinin müavini Alen Semonyan ört-basdır etməyə cəhd göstərib: "Bu adam Qriboyedovun kim olduğundan, nə iş gördüyündən belə xəbərsizdir". Erməni xalqını torpaq sahibi edən bir insanı deputatın köməkçisi olmuş bir nəfərin tanımaması inandırıcı deyil. Njdeni tanıyan Qriboyedovu da çox yaxşı tanıyar. Parlamentin sədr müavininin ona bəraət qazandırmaq cəhdi isə çox gülünc və uğursuz sayılır. Digər tərəfdən, "armenianreport" portalı yazır ki, Rusiya olanları cavabsız da buraxmayacaq. Məhz belə bir vaxtda digər maraqlı məqamlar da üzə çıxıb. Məlum olub ki, Rusiyada təkcə Qaregin Njdenin xatirə lövhəsi sökülməyib. Armavir erməni icmasının rəhbəri Qriqori Karapetyan erməni mediasına açıqlamasında nəinki Njdenin xatirə lövhəsinin söküldüyünü, eyni zamanda üç xatirə lövhəsinin - Andranik Ozanyan, Hamazasp Babacanyan və Hovhannes Bağramyanın da xatirə lövhələrinin söküldüyünü qeyd edib. Şəhər hakimiyyəti lövhələrin qanunsuz olaraq qoyulduğunu bildirib. Karapetyan deyib ki, bu addımın atılmasında məqsədin kilsənin nüfuzunu aşağı salmaq olmasına əmindir. Onun sözlərinə görə, məsələ artıq Armavir rəhbərliyi səlahiyyətindən çıxıb və yalnız iki ölkənin siyasi rəhbərliyi səviyyəsində həll edilə bilər. O, Moskvadakı erməni konsulluğu ilə dəfələrlə danışdığını qeyd edib. Karapetyan bildirib ki, diplomatik kanallarla Njdeyə qarşı Rusiyanın mövqeyini öyrənmək lazımdır: "Ermənilər üçün "qəhrəman" hesab edilən Njdenin Rusiyada necə qəbul olunmasına aydınlıq gətirilməlidir. Bunu bilmək istəyirik. Njdenin xatirə lövhəsi bərpa ediləcək, yoxsa bu "qəhrəman" yalnız ürəklərdə seviləcək?".

Karapetyan qeyd edib ki, vilayətdə erməni icmasının birliyi bir çoxlarının xoşuna gəlmir, bu məsədlə də məsələni qızışdırıb, parçalanmaya nail olmaq istəyirlər. Erməni kilsəsinin nümayəndəsi tərəfindən xatirə lövhəsinin sökülməsinə niyə icazə verilməsi barədə məsələyə toxunan Karapetyan bildirib ki, belə bir qərar qəbul edildikdən sonra artıq kilsə burda heç bir müqavimət göstərə bilməz. O qeyd edib ki, məsələ artıq siyasi xarakter alıb və diplomatik səviyyədə həll olunmalıdır. Amma etiraf edib ki, bu məsələdə ermənilərin istəyinə nail olması artıq müşküldür.

Bunu rusiyalı tarixçi Oleq Kuznetsov məsələyə növbəti dəfə münasibət bildirərkən bir daha təsdiq edib. O, Azərbaycanın bu məsələdə başlatdığı kampaniyanın artıq məntiqi nəticələrini verdiyini də vurğulayıb: "Xatırladım ki, Prezident İlham Əliyev bu il oktyabrın 10-da Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclası zamanı Ermənistanda nasizmin qəhrəmanlaşdırılmasına yönəlmiş dövlət siyasətinin mövcud olması barədə məsələ qaldırdı. O bu məsələni müzakirə etmək üçün deyil, həll etmək üçün qaldırdı. Və əgər Rusiyanın hakim qüvvələri müttəfiqi olan Ermənistana ən sərt diplomatik yollarla təsir etməsə, onlar Azərbaycanın bunu güc yolu ilə etməsinə mane ola bilməyəcəklər". Qriboyedovun heykəlinin təhqir olunması hadisəsinə gəldikdə isə, Kuznetsovun fikrincə, artıq əminliklə söyləmək olar ki, Ermənistanda 2000-ci ildən etibarən məqsədyönlü şəkildə hakim qüvvələrin apardığı nasizmin qəhrəmanlaşdırılmasına yönəlmiş dövlət siyasəti uğurla həyata keçirilir: "Mən bu məsələ ilə bağlı emosiyalardan və "vandalizm" kimi hüquqi terminlərdən istifadə etməyəcəyəm. İstənilən sağlam düşüncəli şəxs üçün İrəvanda Qriboyedovun heykəlinin təhqir olunmasının səbəbi aydındır. Mən ermənilərin kütləvi şəkildə Cənubi Qafqazda müasir Azərbaycanın sərhədləri daxilində, əsasən də Dağlıq Qarabağda peyda olmasında məhz Qriboyedova borclu olmaları üzərində də dayanmayacam". Kuznetsov əlavə edib ki, baş vermiş insident hazırki və gələcək rusiyalı məmurlara ermənilərlə yaxınlıq etməmələri barədə bir işarədir: "Onlar fürsət yaranan anda Qriboyedovun heykəli ilə etdikləri kimi münasibətləri murdarlayacaq, xatirələrin üzərinə çirkab tökəcəklər. Bu sizə lazımdır? Erməni millətçilərdən bu cür davranış gözləyirdim. Bir ildən artıq müddətdir ki, mən "Ermənistan - nasizmin qələbə çaldığı ölkə" adlı silsilə məqalələr nəşr etməyə başlamışam və üzərindən qısa müddət keçməsinə baxmayaraq, təcrübə mənim yanılmadığımı göstərdi. Ermənistanda nasist Njdeyə pərəstiş edən və bu yolda cinayət işləməyə hazır olan böyük bir gənc nəsil formalaşıb. Faşist Almaniyasında "Hitlerügend" gənclər təşkilatı mövcud olduğu kimi, müasir Ermənistanda da bu "Njdeyugend"dir. Ancaq mən buna daha təəccüblənmirəm. Muasir Ermənistan nasizmdən təmizlənməlidir, bu, Almaniyada 1945-1955-ci illərdə tətbiq edildiyi kimi güc yolu ilə edilməlidir. Ümid edirəm ki, artıq Moskvada bunu anlamağa başlayıblar". Daha sonra Kuznetsov Njdenin Armavirdəki xatirə lövhəsinin müdafiəsinə İrəvandakı Rusiya səfirliyini mühasirəyə alan yerli ultramillətçilərin deyil, həmçinin, Rusiya Ermənilər İttifaqının da qalxdığını xatırladıb.

O, ittifaqın prezidenti Ara Abramyanın intellektual bacarıqlarının araşdırılmasının vacib olduğunu qeyd edib: "Məcmu şəkildə bütün bu faktlar erməni cəmiyyətinin xəstə olmasını, nasizmlə xəstələndiyini və bu xəstəliyin cərrahi vasitələrlə, qaynar şişlə yandırılaraq məhv edilməsinə ehtiyac duyulduğunu göstərir".

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Rəsmi Bakı Moskvadan yeni silahlar alır, İrəvan böyük qorxu içində...

**Ermənistanda son günlərdə ciddi narahatlıq predmetinə çevrilən əsas məsələlərdən biri də Azərbaycanın Rusiyadan yeni silahlar alması istiqamətində görülən işlərdir. Özü də bu istiqamətdə müvafiq danışıqların aparılmasının Bişkekdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sammitində Ermənistanın baş naziri Nikol Paşinyanın məlum sərsəm çıxışlarından sonraya təsadüf etməsi işğalçı ölkəni daha çox pərt edib.**

Erməni mediası yazır ki, bununla Rusiya Ermənistanı heçə saydığını bir daha nümayiş etdirmiş oldu. Xatırladaq ki, həmin sammitdə çıxışı zamanı Paşinyan KTMT ölkələrini Azərbaycana silah satmamağa çağırmışdı. Aydın idi ki, onun bu müraciəti daha çox Rusiya və Belarusa ünvanlanıb. Amma real vəziyyət Ermənistan rəhbərliyinin bu istiqamətdə çağırışlarının KTMT-nin digər üzvləri, o cümlədən Rusiya üçün əhəmiyyətsiz olduğunu bir daha nümayiş etdirir.

Bütün bu qeyd edilənlər fonunda Ermənistanda hazırda böyük narahatlıq predmetinə çevrilən əsas məqamlardan biri Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıda verdiyi açıqlamalardır. Həmin açıqlamalardan belə bəlli olur ki, Rusiya istehsalı olan müasir, yüksək dəqiqlikli döyüş texnikası, digər hərbi təyinatlı vasitələrin ordumuzun silahlanmasına daxil edilməsi bundan sonra da davam edəcək. Lavrov da vurğulayıb ki, hərbi-texniki əməkdaşlıq Moskva və Bakı arasındakı strateji tərəfdaşlığın vacib sahələrindən biridir. Lavrov Azərbaycana silah satılması ilə bağlı Ermənistanın KTMT ölkələrinə qarşı iddialarına münasibət bildirərkən onu da deyib ki, Rusiya hərbi-texniki əməkdaşlığı beynəlxalq hüquq normalarına tam uyğun şəkildə inkişaf etdirir, regiondakı qüvvələr balansını və sabitliyin qorunmasının əhəmiyyətini nəzərə almaqla aparır. Öz növbəsində, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov da bildirib ki, Azərbaycanla Rusiya arasında hərbi texniki əməkdaşlıq iki ölkə arasında aparılan danışıqların gündəliyində hər zaman olub və bu davam edəcək: "Rusiya ilə hərbi sferada müəyyən maraqlı fikirlər mövcuddur. Sövdələşmə həyata keçirildikdən sonra ictimaiyyətə ətraflı məlumat veriləcək".

Bu açıqlamalardan bir daha aydın görünür ki, Azərbaycan və Rusiya arasında hərbi əməkdaşlıq Ermənistanın bütün narahatlığına rəğmən davam etdiriləcək. Xatırladaq ki, bir neçə gün əvvəl də Azərbaycan Müdafiə Nazirliyi yeni Rusiya silah-sursatının alınmasına hazırlığı haqqında bəyanat verib. Bundan öncə isə Prezident İlham Əliyev bildirib ki, Bakı rus silah-sursatının tədarükü üçün yeni müqavilələnin imzalanmasında maraqlıdır. Bu məsələ İlham Əliyevin Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Qerasimovla görüşündə də müzakirə predmeti olub. Rusiya və Azərbaycan arasında artıq həyata keçirilmiş silah tədarükü müqavilələri isə 5 milyard dollar dəyərindədir. Azərbaycan Xarici İşlər Nazirliyinin nümayəndəsi Leyla Abdullayeva da "RİA Novosti"yə açıqlamasında məsələ ilə bağlı mühüm açıqlamalar verib: "Azərbaycan KTMT üzv ölkələri ilə sıx hərbi-siyasi və hərbi-texniki əməkdaşlıqdadır. Azərbaycan və Rusiya arasında hərbi-texniki sahədə əməkdaşlığı xüsusi vurğulamaq istəyirəm". Leyla Abdullayeva bildirib ki, zərurət yaranacağı təqdirdə, Azərbaycan Rusiyadan yeni silah-sursat alacaq. Erməni ekspert Manvel Sərkisyan bu fonda qeyd edir ki, Rusiya durmadan Azərbaycana yeni silah növləri satmasını ancaq biznes maraqları ilə izah etməyə çalışsa da, məsələ belə deyil. "Moskvada Azərbaycan ordusunu yeni Rusiya silahları ilə təchiz etmək barədə siyasi qərar qəbul edilib. Rusiya bütün gücü ilə Azərbaycanla əlaqələrini dərinləşdirməyə çalışır və təbii ki, heç cür Ermənistanla hesablaşmaq istəmir. Azərbaycana yeni silahların verilməsi məhz Ermənistana böyük zərbədir".

Rusiyalı hərbi ekspert Aleksandr Xramçixin isə bildirir ki, Moskva özü də Bakıya silah tədarükündə maraqlıdır: "Burada Moskva ilk növbədə iqtisadi maraqlarını nəzərə alır. Ermənistanın mövqeyi burada nəyisə ifadə etmir. Azərbaycanın isə bütün növ silahlarla silahlanmasında məqsəd Dağlıq Qarabağı geri almaqdır. Hesab edirəm ki, müharibədən yayınmaq olmayacaq, çünki məsələ başqa yollarla həll edilmir. Mən bu məsələ haqqında çox danışmışam. KTMT-nin bütün ölkələrindən yalnız Rusiya Ermənistana kömək edə bilər, lakin bu, Ermənistan ərazisinə hücum olarsa baş verə bilər". Onun sözlərinə görə, Qarabağ münaqişəsi Rusiya üçün problemlər yaradır: "Digər ölkələrin bu münaqişə ilə əlaqəsi yoxdur. Bəli, Rusiya üçün bu münaqişə problemlər yaradır. Rusiya çox istəsə, bu konfliktdən kənarlaşdırıla bilər, lakin o, böyük ehtimalla, bunu etməyəcək, çünki bu konflikt hətta onun üçün problemlər yaradır. Rusiyanın regionda necə siyasət apardığı məlumdur. O həm Azərbaycanla, həm də Ermənistanla yaxşı əlaqələrə malikdir. Rusiya hər şey edə bilər, lakin ümumi mənada, bəli, Rusiyanın hər iki tərəf üzərində böyük təsiri var. Yəni Rusiya çox istəsə, ona qarşı getmək Qarabağ münaqişəsinin həllində problem yaradan Ermənistan üçün çətin olacaq. Necə ki, Ermənistan Rusiyanın Azərbaycana silah satışını əngəlləyə bilmir".

Bunlar fonunda indi işğalçı ölkə görür ki, Azərbaycan ordusu həm texniki təchizat, həm döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasında öz yerini inamla tutmaqda davam edir. Rusiyadan alınacaq yeni silahlar isə bu prosesə əlavə təkan verəcək.

Digər tərəfdən faktdır ki, Ermənistandan fərqli olaraq, Rusiya hər zaman Azərbaycana ən müasir silahları böyük həvəslə satmağa hazır olduğunu bildirir və ölkəmizin buna maliyyə imkanları da çatır. İndiki vəziyyətdə artıq o da məlumdur ki, Rusiya Azərbaycana yeni müasir silahlar kimi Su-30SM və MiQ-35 təyyarələrini artıq təklif edib. Rusiyalı hərbi ekspert Sergey Suvorov bu təyyarələrin alınmasını mümkün sayır: "Hazırda Azərbaycanla Rusiya arasındakı hərbi-texniki əməkdaşlığın uğurla davam edir. Azərbaycan həmişə Rusiyanın strateji tərəfdaşı olub və bu cür də qalır. Bu gün Bakı ilə Moskva olduqca yaxşı və sıx əlaqələrə malikdir. Rusiyanın Azərbaycana yeni silahlar, xüsusən də çoxhədəfli, dördüncü nəsil Su-30SM və Su-35 qırıcı təyyarələri verməsinin mümkünlüyünə də toxunan Suvorov gələcəkdə belə bir müqavilənin imzalanmasını istisna etməyib. Onun fikrincə, Azərbaycana yeni nəsil növbəti müasir silahların satışı tamamilə mümkündür: "Əgər biz Su-35 təyyarələrini digər ölkələrə sata biliriksə, onda niyə də Azərbaycana satmayaq?". Xatırladaq ki, ordunun digər növləri ilə yanaşı hərbi aviasiyanın gücləndirilməsi də rəsmi Bakının əsas prioritetlərindən biri sayılır. Bir müddət əvvəl qeyd olunan səpkidə Azərbaycanla fərqi azaltmaq üçün Ermənistan Rusiyadan Su-30 SM hərbi təyyarələrini almaq niyyətini ortaya qoysa da, hətta bununla bağlı razılıq əldə etdiyi bildirilsə də, hadisələrin real inkişaf axarı İrəvanın arzularının ürəyində qalmaqda olduğunu göstərir. Ermənistanın "Jamanak" nəşri də yazır ki, Moskva Bakıya yeni silahların satılacağının anonsunu versə də, Su-30 SM hərbi təyyarələrinin İrəvana gəlməsi böyük sual altındadır. Bunun səbəblərindən biri Moskva-İrəvan münasibətlərinin kəskinləşməsi, digəri isə Ermənistanın maliyyə imkanlarının yoxluğudur. "Jamanak" qeyd edir ki, təyyarələrin alınması üçün Ermənistanın maliyyə krediti ilə, yoxsa nağd pulla ödəniş edəcəyi məlum deyil. Məsələnin qeyri-müəyyən olaraq qalması isə təyyarələrin alınmasını da sual altına alıb: "Burada söhbət "kiçik olmayan" silah növlərindən gedir. Amma Ermənistanın maliyyə imkanları bu silahları almağa imkan vermir. Rusiya isə, əvvəlki kimi, Ermənistana kredit ayırmaqda maraqlı deyil. Deməli, təyyarələrin ölkəyə çatdırılması da sual altına düşür. Bu durumda Azərbaycan vəziyyətin və ya status-kvonun idarə edilməsi, eləcə də növbəti sabitliyin təmin olunması məsələsində kifayət qədər incə xəbərdarlıq nümayiş etdirir. Status-kvonun idarəetmə mexanizmi hərbi-siyasi və hərbi-texniki balansla birbaşa əlaqəlidir. Bu balansın təmin olunması üçün Ermənistanın hərbi-texniki imkanlarının geniş şəkildə modernləşdirilməsi olduqca vacib məsələdir. Amma buna maliyyə imkanı yetmir. Digər bir diqqətə çatdırılmalı məsələ isə sözün əsl mənasında bu silahların hansı qiymətə başa gələcəyidir. Ermənistan üçün bunlar ciddi problemdir". Məhz bu durumda Rusiyadan Azərbaycana yeni silahların gəlişinə görülən hazırlıq düşmən ölkədə əsl şok effekti yaradır. Bunu rus hərbi ekspert İqor Korotçenko da xüsusi vurğulayır və qeyd edir ki, Ermənistan tərəfindən Rusiyanın Azərbaycana silah satmasına görə etirazlar hər zaman olur. Amma bunun praktik baxımdan heç bir təsiri yoxdur. Onun sözlərinə görə, həm Rusiya, həm də Belarus Azərbaycana müasir silahlar satıb və satmaqda davam edəcək: "Vəziyyət dəyişməyəcək. Azərbaycan Rusiyanın hərbi-texniki əməkdaşlıq sahəsində ən vacib tərəfdaşlarından biridir və Rusiya silahlarının davamlı tədarükünə arxalana bilər. Ermənistan rəsmilərinin səsləndirdiyi bəyanatlar isə bunu heç bir şəkildə dəyişdirə bilməz. Rusiya hər dəfə bildirir ki, Azərbaycana müasir silah tədarükü hər hansı üçüncü ölkəyə qarşı deyil, Azərbaycanın suverenliyini və milli təhlükəsizliyini möhkəmləndirməyə yönəlib. İrəvanın narazı olması faktı başadüşüləndir, çünki Azərbaycan Silahlı Qüvvələri daha müasir, güclü və keyfiyyətli olur. Rusiya silahları Azərbaycan ordusunun imkanlarını xeyli artırır". Digər ekspertlər hesab edir ki, artıq İrəvanın bundan müvafiq nəticə çıxarmasının vaxtı çoxdan çatıb. Əks təqdirdə, alınan yeni silahların hədəfində kimlərin olacağı heç kimə sirr deyil.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Dünyanın ən böyük əhalisinə malik ölkələrdən Azərbaycana yeni axın başlanacaq

**Bu gün dünya dövlətlərinin xüsusi diqqət mərkəzində yer alan əsas məqamlardan biri turizm sektoru, daha çox turistin cəlbi ilə bağlıdır. Çünki bu məqam əksər ölkələrdə iqtisadi inkişafın əsas məhək daşlarından biri sayılır.**

Qeyd olunan xüsusda son illərdə Azərbaycanda atılan addımlar da artıq öz müsbət nəticəsini verməkdədir. Bunu ölkəyə gələn tursitlərin artım dinamikası da təsdiq edir. Dövlət Turizm Agentliyinin mətbuat katibi Kənan Quluzadə bildirir ki, yanvar-noyabr aylarında Azərbaycana gələn xarici vətəndaşların sayı 2 milyon 900 mini keçib. Onun sözlərinə görə, bu, ötən illə müqayisədə 11,1 faiz artım deməkdir: "İlk beşlikdə ənənəvi olaraq Rusiya, Gürcüstan, Türkiyə, İran və Səudiyyə Ərəbistanı vətəndaşlarıdır. Deməli olar ki, bütün bazarlarda artım davam edir. Avropa, Mərkəzi-Cənubi Asiya istiqamətindən, Yaxın Şərq bazarından müəyyən ölkələrdə azalma var. Amma ümumi mənzərədə müsbət tendensiya davam edir".

Kənan Quluzadə bildirib ki, Yaxın Şərqin bəzi ölkələrində azalmanın bir neçə faktoru var: "Birincisi, həmin ölkələrdən çıxışla bağlı problem var. Yəni Azərbaycanda qəbulla bağlı problem yoxdur. Yaxın Şərq qeyri-stabil regiondur. Məsələn, İraqdan gələnlərin sayı azalıb. Bu azalma bəzi ölkələrdə uçuşların azalması ilə bağlıdır. Ümumilikdə götürəndə həmin ölkələrdən gələn turistlərin tendensiyası belədir ki, onlar bir neçə il ərzində bir istiqamətə axışırlar, sonra isə bazarlarını dəyişirlər". K.Quluzadənin sözlərinə görə, bu nəzərə alınaraq, bu il daha çox yeni bazarların açılmasına üstünlük verilib ki, Azərbaycana gələn xarici vətəndaşların sayı təkcə müəyyən bazarlara köklənməsin, coğrafiyası daha geniş olsun: "Buna da nail ola bildik. Məsələn, Hindistan, Çin, Pakistan bazarı bizim üçün yeni bazardır".

Ekspertlər bildirir ki, böyük əhali sayına və güclü iqtisadiyyata malik Çin və Hindistandan turist axınının təmin edilməsi bu sahədə Azərbaycana mühüm üstünlüklər vəd edir. Qeyd edək ki, Azərbaycan dünyanın 7-ci böyük iqtisadiyyatına malik Hindistanla iqtisadi əlaqələrini sürətlə inkişaf etdirir. İqtisadi yaxınlaşmada turizm sahəsində əməkdaşlıq, daha dəqiq desək, Hindistan vətəndaşlarının Azərbaycana sayı getdikcə artan turist səfərləri böyük rol oynayır. 2018-ci ildə Hindistandan Azərbaycana 40 mindən çox turist gəlib. Bu, 2017-ci ilə nisbətən 2,7 dəfə çoxdur. 2019-cu ilin yanvar-oktyabr aylarında isə ölkəmizə səfər edən hindistanlı turistlərin sayı illik müqayisədə 66,5% artaraq 51 min nəfərə çatıb.

Hindistanın "VMS Travels Tours LTD" şirkətinin icraçı direktoru Srini Rao bildirib ki, təmsil etdiyi şirkət ikitərəfli turizm əlaqələrinin inkişaf etdirilməsində xüsusi maraqlıdır. Onun sözlərinə görə, hər il təxminən 20 milyon hindistanlı dünyanı turist kimi gəzir. Bunun cəmi 0,2%-i ötən il Azərbaycana gəlib ki, bu da çox aşağı göstəricidir:"Bu rəqəmi artırmaq mümkündür. Hazırda Azərbaycanla Hindistan arasında birbaşa aviareys yoxdur. Bu isə turizm əlaqələrində böyük boşluqdur. Ümid edirəm ki, birbaşa uçuşlar tezliklə reallaşacaq və iki ölkə arasında turizmin inkişafına xidmət edəcək". Ş.Rao həmçinin deyib ki, təmsil etdiyi turizm şirkətinin müştəriləri Azərbaycanla, xüsusən paytaxt Bakı ilə çox maraqlanır: "Bakı son vaxtlar Hindistanda məşhurlaşıb. İnanıram ki, bura səfər edən hindistanlıların sayı sürətlə artacaq. Ümid edirəm ki, Azərbaycan bu imkandan istifadə edəcək və ölkənin turizm potensialını Hindistanda təşviq edəcək".



Çindən gələnlərin də sayının artması Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, 2019-cu ilin yanvar-sentyabr dövründə Azərbaycana səfər edən çinli turistlərin sayı 20 min nəfər təşkil edib ki, bu da ötən ilin eyni dövrünə nisbətdə 64 faiz artım deməkdir. Amma bu rəqəm kifayət qədər azdır və ölkənin daha böyük sayda çinli turisti qəbul etmək imkanı var. Qeyd edək ki, 2018-ci ilin dekabrından etibarən Çinin Pekin şəhərində Azərbaycan Turizm Bürosunun rəsmi nümayəndəliyi fəaliyyət göstərir. Bakı ilə Çinin Pekin və Urumçi şəhərləri arasında birbaşa hava nəqliyyatı əlaqəsinin olması, Çin vətəndaşları üçün 2016-cı ilin fevralından etibarən sadələşdirilmiş viza rejiminin tətbiqi, "Asan Viza" sisteminin fəaliyyəti çinli turistlərin Azərbaycana səfər imkanlarını genişləndirib. Bir məqamı da xüsusi vurğulmaq lazım gəlir ki, çinli turistlər yüksəkbüdcəli sayılır. Məsələn, Çindən olan turistlər təkcə ilin birinci yarısında xaricdə 128 milyard ABŞ dolları məbləğində pul xərcləyiblər. Son bir neçə ildir xaricə turizm səfərlərinin sayına görə çinlilər dünyada birinci yeri tutur. Qlobal turizm gəlirinin təxminən 15 faizi çinli turistlər tərəfindən təmin edilir. Çinin Milli Turizm Administrasiyasının məlumatına əsasən, ötən il Çindən xaricə təxminən 150 milyon turist səfəri qeydə alınıb. Bu fonda Çindən Azərbaycana turist səfərlərinin sayının artması ölkəmiz üçün böyük önəm kəsb edir. Hesablamalar göstərir ki, görülən işlər nəticəsində 2023-cü ildə Azərbaycana artıq 4 milyona yaxın turist cəlb etmək mümkün ola bilər. Amma burada həllini gözləyən bir sıra mühüm məqamlar da var. Dövlət Turizm Agentliyinin aparat rəhbəri Kənan Qasımov bu xüsusda bildirib: "Əcnəbilər arasında keçirilmiş rəy sorğusu nəticəsində məlum olub ki, onların 53,2%-i nəqliyyat, gecələmə, qidalanma və digər xidmətləri əhatə edən "Hər şey daxil" tur paketlərindən, 21,9%-i yalnız nəqliyyat və gecələmə xidmətlərindən, 12,6%-i isə yalnız nəqliyyat və qidalanma xidmətlərindən istifadə edib.

**Azərbaycan regionlarından Qəbələ, Şəki, Quba və Qusar turistlərin dincəlməyə üstünlük verdiyi əsas yerlər olub. Turistlərin narazı qaldığı məqamlar aviabilet və yerləşmənin qiymətləri, həmçinin bölgələrdə görməli yerlərə əlçatanlıq səviyyəsi, ictimai nəqliyyatın keyfiyyətidir". Bu qəbildən olan məsələlərin həlli Azərbaycana üz tutan xaricilərin sayını daha da artıra bilər.**

***Ramil QULİYEV***

# Şəhidlərimizin müqəddəs statusunu da ikiyə bölürlər - hərbi şəhid, mülki şəhid?

***Nəzakət Məmmədova:** "Mən uzun illərdir şəhidlər arasında ayrıseçkilik yaratmaq istəyən, bu istiqamətdə xüsusi təbliğat quran insanlara..."*

**Şəhidlik Tanrı mərtəbəsində ən ali məqamdır. Bu məqama, bu mərtəbəyə ucalmaq hər adama nəsib olmur. Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda edən də, evində, həyətində oturduğu, təsərrüfatında işlədiyi yerdə erməni gülləsindən həlak olan da şəhiddir.**

Çünki Ermənistan Silahlı Qüvvələri yalnız Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutmur, həm də hədəf olaraq cəbhəyanı ərazilərimizdə yaşayan dinc sakinlərimiz, vətəndaşlarımızı seçirlər, qəbiristanlıqlarımızı atəşə tuturlar.

Bu gün Azərbaycanda kifayət qədər hərbi şəhid var ki, onlar əllərində silah düşmənə qarşı mübarizədə həlak olublar, onlarla yanaşı, saysız mülki şəhid də var, bu şəxslər erməni gülləsindən dünyalarını dəyişiblər. Mülki şəhidlər arasında uşaqların da sayı az deyil.

Çox təəssüf ki, son illər ictimaiyyətdə bəzi insanlar, hətta onlar arasında yüksək çinli hərbçilər də var, Azərbaycan şəhidlərinə qarşı bölücülük təbliğatı aparırlar. Bu insanlar deyirlər ki, erməni işğalçılarının atdığı güllədən həlak olan mülki şəxslər, qadınlar, kişilər, uşaqlar şəhid sayılmamalı, şəhidlik statusu yalnız ermənilərlə döyüşərkən həlak olanlara verilməlidir. Bu səhv yanaşmadır və kökündən yanlışdır, birbaşa şəhidlərimizin bölünməsinə hesablanıb. Bu düşüncə sahiblərini heç cür anlamaq olmur.

Bu barədə danışarkən yadımıza illər əvvəl redaksiyamıza gələn, oğlu erməni gülləsindən həlak olan, lakin bəzi məmurların özbaşınalığı nəticəsində övladına şəhidlik statusu ala bilməyən ata ilə söhbətimiz düşdü. O atanın hansı rayondan gəldiyi, oğlunun hansı cəbhə bölgəsində şəhid olduğunu dəqiq yadımızda saxlaya bilməmişik, amma hadisə olduğu kimi yadımızdadır. Ata bildirirdi ki, oğlu əlinə silah alıb düşmənə qarşı vuruşmasa da, cəbhənin qaynar nöqtələrinə gedib, orada yaralı əsgərlərə kömək edib, şəhid edilən hərbçilərimizi səngərdən çıxarmağa köməklik göstərib, belə vəziyyətlərdən birində oğluna da erməni gülləsi dəyib və o həlak olub. Ata oğluna şəhidlik statusu alana qədər döymədiyi qapı qalmayıb, mətbuatın köməyilə o, oğluna şəhid statusu ala bilmişdi. Bu cür hallar təəssüf ki, mövcuddur.

Respublika "Xatirə Kitabı" redaksiyası Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan, itkin və girov düşən vətəndaşlarımızın xatirəsini əbədiləşdirmək üçün böyük layihələr həyata keçirib.

Bu səbəbdən də mövzu ilə əlaqədar Respublika "Xatirə Kitabı" redaksiyasının baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü Nəzakət Məmmədova ilə əlaqə saxladıq. N.Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, bəzən müəyyən adamlar haqsız olaraq şəhidlərimizə qarşı bölücülük edirlər. "Bu mövzunu gündəmə gətirməyiniz çox yerinə düşdü. Çox sevindim ki, siz bu məsələ ilə bağlı birbaşa ünvana müraciət etdiniz. Bu çox ağrılı haldır və məni hər zaman ciddi narahat edir. Bilirsiniz ki, "Xatirə Kitabı" redaksiyası olaraq, müharibədə şəhid olan, əsir, itkin düşən vətəndaşlarımızla bağlı ensiklopedik məlumatlar toplayıb, onları işıqlandırırıq. Bu istiqamətdə "Xatirə Kitabı"nın bir neçə cildi işıq üzü görüb. "Xatirə Kitabı" redaksiyasının rəhbəri kimi dəfələrlə müəyyən iradlarla üzləşmişəm ki, siz cəbhədə həlak olmayanları siyahıya alıb, onların adlarını əbədiləşdirirsiniz, mənə yönələn bu irad nə dərəcədə düzgündür? İstənilən vətəndaşımız, istər çoban olsun, istər əkinçi, istərsə də evdar qadın, fərqi yoxdur, erməni gülləsindən həlak olubsa, o, birmənalı olaraq, şəhiddir. Bu vətəndaşlarımız əllərinə silah alıb erməni ilə vuruşmayıblar, amma evlərində, həyətlərində durduqları yerdə Ermənistan Silahlı Qüvvələri tərəfindən qətlə yetiriliblər. Biz erməni gülləsindən həlak olan ikiyaşlı Zəhraya və onun nənəsinə necə şəhid deməyə bilərik? Ermənistan Silahlı Qüvvələrinin atdığı güllə nəticəsində həlak olan həm mülki sakinlər, dinc insanlar, həm də hərbçilər şəhiddirlər. Mən uzun illərdir şəhidlər arasında ayrıseçkilik yaratmaq istəyən, bu istiqamətdə xüsusi təbliğat quran insanlara qarşı mübarizə aparıram. Mən erməni gülləsindən həlak olan, ermənilərin torpaqlarımıza təcavüzü nəticəsində şəhid olan, itkin düşən, girov götürülən vətəndaşlarımızın hamısının adını əbədiləşdirməyi özümə borc bilirəm, bu işi də həyata keçirirəm".



*"Dəfələrlə müəyyən iradlarla üzləşmişəm ki, siz cəbhədə həlak olmayanları siyahıya alıb, onların adlarını əbədiləşdirirsiniz"*

N.Məmmədova qeyd etdi ki, hətta bir müddət əvvəl "Xatirə Kitabı"nın xüsusi buraxılışının təqdimatında da yüksək çinli hərbçilərdən biri ona öz iradını bildirib. "Bu tədbirdə yüksək çinli bir hərbçi də mənə sual verdi ki, sizin çobanı da, evdar qadını da, təsərrüfatında işləyərkən həlak olan insanı da xüsusi buraxılışa daxil etməyiniz nə dərəcədə düzgündür? Mən də ona açıq şəkildə bildirdim ki, o insanların hamısı Ermənistan ordusunun açdığı atəş nəticəsində həlak olub. Bu insanlar düşmən gülləsindən həlak olublarsa, şəhiddirlər, bunun başqa adı yoxdur. Hesab edirəm ki, bəzi insanların şəhidlərimizi mülki və hərbi şəhidə bölməsi doğru deyil, bu, erməni gülləsindən həlak olan vətəndaşlarımızın ruhunun incidilməsidir" - deyə N.Məmmədova qeyd etdi.

Ermənistan ordusunun əsas hədəflərindən biri cəbhəyanı rayon və kəndlərin sakinləridir. Ermənilərin atəşkəs dövründə saysız mülki vətəndaşımızın canına qıydığını deyən N.Məmmədovanın fikrincə, biz mülki vətəndaşlarımızın erməni gülləsindən şəhid olduğu faktını daha geniş səviyyədə gündəmə gətirməliyik və Ermənistan ordusunun hədəfinin dinc Azərbaycan vətəndaşı olduğunu mütəmadi olaraq beynəlxalq ictimaiyyətə çatdırmalıyıq.

***İradə SARIYEVA***

**Cari ilin noyabr ayında Azərbaycanda fəaliyyət göstərən bəzi banklarda istehlak və biznes kreditləri üzrə təklif edilən faiz dərəcələrinə dəyişiklik edilib. Belə ki, nağd kreditlər üzrə faiz dərəcəsi "AFB Bank"da 20 faizdən 17 faizə, "BTB Bank"da 18-26 faizdən 18-21 faizə, "Expressbank"da 17 faizdən 16,15 faizə endirilib.**

# Çox deyiləndən sonra banklar kredit faizlərini aşağı saldı, sonra nə olacaq...

***Ruslan Atakişiyev:** "Banklarda kredit faizlərinin aşağı salınması sahibkarlığın inkişaf etməsinə və maliyyə bazarlarına yeni maliyyə alətlərinin gəlməsinə səbəb olacaq"*




Biznes kreditləri üzrə faiz dərəcələri hesabat ayında "AFB Bank"da 20 faizdən 17 faizə düşürülüb. Qeyd edək ki, hazırda nağd kreditlər üzrə ən aşağı faiz dərəcəsi "Turanbank" və "Xalq Bank"dadır.

Bankların kredit faizlərini endirməsi müsbət haldır. Kredit faizlərinin endirilməsi kredit götürmək istəyən şəxslərin maddi vəziyyətinə müsbət təsir edəcək. Maraqlıdır, bu hal davamlı proses olarsa, iqtisadi fəallığa necə təsir edəcək?

İqtisadçı-ekspert Ruslan Atakişiyev bildirdi ki, banklarda kredit faizlərinin aşağı salınması sahibkarlığın inkişaf etməsinə və maliyyə bazarlarına yeni maliyyə alətlərinin gəlməsinə səbəb olacaq. Bu kimi amillər iqtisadi aktivliyə, məhsul və əmtəə istehsalına marağı daha da artıracaq.

Onun sözlərinə görə, cari ilin noyabr ayında "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na dəyişikliklər edilməsi də kredit, xüsusən də biznes kreditləri üzrə faizlərə təsir edib: "Həmin dəyişiklikdə əsas məqsəd biznes kreditlərinin həcminin artırılmasıdır. Kredit risqinin səviyyəsini dəyişdirməklə

*"...biznes kreditlərini, xüsusən də iri məbləğdə olan kreditləri geri almaq üçün mübahisə..."*

müəyyən sahələr üzrə kreditləşməni artırmaq və ya azaltmaq mümkündür. Bu hal, istər-istəməz, biznes kreditlərinin həcminə təsir edəcək və biznes kreditlərini də artırmaq məqsədilə faizlər endirilə bilər".

İqtisadçı onu da vurğuladı ki, biznes kreditləri üzrə faizlərin aşağı düşməsi üçün makroiqtisadi göstəricilərlə yanaşı, digər mühüm məsələlər də həllini tapmalıdır: "Məhkəmə-hüquq sistemində islahatlar dərinləşdirilməli və bankların geri qaytarılmayan kreditlər üçün məhkəmələrdə vaxt itirməsinin, müxtəlif çətinliklərlə qarşılaşmasının qarşısı alınmalıdır.

**İstehlak kreditlərinin geri alınması çətin olmur. Amma biznes kreditlərini, xüsusən də iri məbləğdə olan kreditləri geri almaq üçün mübahisə məhkəmə müstəvisinə keçir. Məhkəmə müstəvisində olan mübahisələr bəzən uzun çəkir, borcalan krediti qaytarmamaq üçün müxtəlif vasitələrdən istifadə edir. Bu vəziyyətlə üzləşən banklar kredit faizlərini çox azalda bilmirlər".**

*Günel CƏLİLOVA*

**Parlamentin ötən plenar iclasında "Tibbi sığorta haqqında" Qanuna təklif edilən dəyişiklik layihəsi üçüncü oxunuşda qəbul edilib. İcbari tibbi sığorta gələn il yanvarın 1-dən etibarən ölkə ərazisində mərhələli şəkildə həyata keçirilməyə başlanacaq.**

# İcbari tibbi sığortanın uğur qazanacağına şübhələr var - kadr çatışmır, xidmət səviyyəsi aşağıdır və sair...



Ancaq icbari tibbi sığorta ilə bağlı hələ də bəzi suallar və narazılıqlar var. Bəzi millət vəkilləri, ekspertlər icbari sığortanın tam şəkildə effekt verməyəcəyini deyirlər.

Millət vəkili Qənirə Paşayeva parlamentdə çıxışı zamanı bildirib ki, icbari tibbi sığorta effekt verməyəcək. Çünki xəstəxanalar, kənd məntəqələrində ixtisaslı kadr çatışmazlıqları var və xidmətin səviyyəsi də aşağıdır: "Bu da təsadüfi deyil, bunun üçün bünövrə qənaətbəxş olmalıdır ki, onun üstündə iş aparasan. Kənd tibb məntəqələrinin bir çoxu bərbad gündədir. Xidmət də ödənilən sığorta haqqının tələblərinə cavab verməyəcək. Yenə də vətəndaş ödədiyi puldan əlavə vəsait xərcləməli olacaq. Tibb Universitetindən gələn kadrların heç də hamısı işin bilən kadrlar deyil. İrana və digər ölkələrə tibbi xidmətlə bağlı axın yenə davam edəcək. Ümumiyyətlə, icbari tibbi sığorta mərhələsinə keçid üçün məqam yetişməyib. Bu sahə üzrə ixtisaslı kadrlar belə yoxdur. Xaricdə bu sahə üzrə ixtisaslaşmış azərbaycanlıları bura dəvət etmək lazımdır".

Ekspertlər icbari tibbi sığorta ilə bağlı bəzi çatışmazlıqların olduğunu bildirirlər.

Sığorta eksperti Xəyal Məmmədxanlı bildirdi ki, tibbi xidmətlərlə bağlı müəyyən edilən tariflər heç bir real hesablamaya əsaslanmır və reallığı əks etdirmir: "İkincisi, müəyyən edilən sığorta haqlarının məbləği göstərilməsi nəzərdə tutulan tibbi xidmətləri ödəməyə adekvat deyil. Üçüncüsü, sığorta haqlarının hesablanması və ödənilməsi qaydası ədalətli və düzgün deyil. Dördüncüsü, İTSDA və onun nəzdindəki TƏBİB tabeliyinə verilən dövlət tibb təchizatçılarını idarə etmək imkanına və qüdrətinə malik deyil. Beşincisi, İTS çərçivəsində həkimlərin və tibb heyətinin əməkhaqlarının müəyyən edilməsi sistemi yanlışdır və reallığı əks etdirmir. Altıncısı, sığorta şirkətlərinin

***Xəyal Məmmədxanlı:** "Poliklinikalarımızın, o cümlədən, ailə həkimi institutunun İTS tələblərinə cavab verməməsi və hazır olmaması vəziyyəti daha da qəlizləşdirir*

***Adil Qeybulla:** "...narazılıqlar daha da artacaq"*

İTS-dən kənarda qalması absurddur və yanlış qərardır. Yeddincisi, tibb xidmətlərini almaq üçün vətəndaşların göndəriş sistemi kökündən yanlışdır və insanların tibbi sığorta xidmətlərinə vaxtında və effektiv olaraq əlçatanlığını azaldır. Səkkizincisi, poliklinikalarımızın, o cümlədən, ailə həkimi institutunun İTS tələblərinə cavab verməməsi və hazır olmaması vəziyyəti daha da qəlizləşdirir. Doqquzuncusu, özəl tibb müəssisələrinin İTS-də iştirak etməməsi və ya onların iştirakının İTSDA-nin qərarına buraxılması yanlışdır. Bir sözlə, mövcud İTS qarşısında qoyulan iki əsas məqsədə - səhiyyənin maliyyələşdirilməsi və əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsinə çatmaq sadəcə mümkünsüzdür".

Professor, tibbi ekspert Adil Qeybulla bildirdi ki, əhali icbari tibbi sığortadan fayda görməyəcək və narazılıqlar daha da artacaq: "Hesab edirəm ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2020-ci ildə icbari tibbi sığortanın ölkə üzrə tətbiqi ilə əlaqədar hökumətə təqdim etdiyi təkliflərdə xeyli yanlışlıq var. Əslində, bu mərhələli bölgüyə heç bir lüzum yox idi. Ümumiyyətlə, başdan bu mərhələyə də heç bir lüzum olmayıb. İcbari tibbi sığortanın tətbiqi bu sahədə yaşanan problemləri düzəltməyəcək. Hazırkı vəziyyət yenə də xaotik durum yaradacaq. Yəni əhali icbari tibbi sığortadan fayda görməyəcək və narazılıqlar daha da artacaq. İşin də bütün məsuliyyəti bu işin həvalə olunduğu qurumun üzərinə düşəcək.

Hesab edirəm ki, bu işdən başı çıxan, bu işlə bağlı məsləhət verə biləcək mütəxəssislərin cəlb edilməməsi də bir yanlışlıqdır. Əlbəttə, biz bu yanlışları mərhələ-mərhələ görəcəyik. Yanvarın 1-nə qədər gözləyək görək nələr baş verəcək".

*Günel CƏLİLOVA*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# Elm və təhsilin inkişaf etdirilməsi

**Hər bir ölkənin inkişafının uğurlu olması bir neçə əmsalla qiymətləndirilir. Bu əmsallar içərisində elm və təhsil səviyyəsinin hansı göstərici ilə ifadə olunması çox mühüm rol oynayır. Elm və təhsil hər bir insana öz davamlı gələcəyini formalaşdırmaq, zəruri bilik, bacarıq, münasibətləri və dəyərləri əldə etmək üçün imkan yaradan əsas faktorlardan biridir.**

Müasir dövrdə davamlı inkişaf və təhsil sistemini ayrı-ayrı mövzular kimi deyil, vahid bir sistem kimi nəzərdən keçirmək lazımdır. Çünki davamlı inkişafı təmin edən vasitələrdən ən əsası ölkənin inkişaf etmiş təhsil sistemidir. İnkişaf etmiş ölkələrdə sosial institutların gələcək inkişafı keyfiyyətli təhsillə bağlıdır.

Danılmaz faktdır ki, ölkəmizdə də elm və təhsilin inkişafı daim diqqət mərkəzindədir. Xüsusən müstəqilliyini bərpa etdikdən sonra ölkə qarşısında duran ən böyük vəzifələrdən biri də təhsil sisteminin köhnə şablonlardan azad edilərək müasirləşdirilməsi və yeni ictimai-iqtisadi şəraitin tələblərinə uyğun şəkildə formalaşdırılmasına nail olmaqdır. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir.

Bəllidir ki, elm olmayan yerdə ixtisaslı kadrlar, inkişaf da və deməli, gələcək də olmayacaq. Əbəs yerə deyilməyib ki, elmə doğru gedən yol təhsildən keçir. Məlum olduğu kimi, görkəmli şəxsiyyət Heydər Əliyev elm və təhsil sahəsinə daim böyük diqqət və qayğı göstərib və sevindirici haldır ki, dahi rəhbərin siyasəti Prezident İlham Əliyev tərəfindən əzmlə davam etdirilir. Bəli, hazırda Azərbaycanda gənc nəslin elm və təhsilə cəlb olunması üçün dövlət tərəfindən mühüm addımlar atılır. Bunun bariz nümunəsi olaraq Elmin İnkişafı Fondunda və təhsillə bağlı digər tədqiqat mərkəzlərində gənc tədqiqatçılar üçün yaradılan şərait, perspektiv, həyata keçirilən layihələr bu sahəyə öz müsbət töhfəsini verməkdə davam edir. Bununla yanaşı, hər il dövlət büdcəsindən elm və təhsilə milyonlarla manat vəsait ayrılır.

Son illər təhsil sistemində aparılan islahatlar, yeniliklər elm və təhsilin inkişafında, savadlı kadrların yetişməsində müsbət təsirini göstərib, gənc nəslin vətənpərvər, geniş dünyagörüşlü, hərtərəfli formalaşmasında mühüm rol oynayıb. Dünyanın mütərəqqi təhsil modeli olan kurikulum artıq bir neçə ildir Azərbaycanda da tətbiq olunur və öz müsbət nəticəsini göstərir. Kurikulumun tətbiqi ölkə təhsilində bir sıra yeniliklərə imza atıb. Artıq müəllimlər şagirdlərə nəzəri bilik vermirlər. Kurikulum sayəsində şagirdlərin dərsə olan marağı daha da artıb.

Azərbaycan təhsilinə göstərilən diqqət göz qabağındadır. Belə ki, Prezident İlham Əliyevin imzaladığı "Dövlət ümumtəhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" sənəd bu baxımdan əhəmiyyətlidir. Stimullaşdırıcı mexanizmlərin tətbiqi müəllimlərin peşəkarlığının, səriştəlilik səviyyəsinin yüksəldilməsinə, sağlam rəqabətin formalaşmasına müsbət təsir edəcək, hər bir təhsilverənə öz işinə tənqidi yanaşmaq imkanı yaratmaqla inkişaf perspektivlərini göstərəcək və nəticə etibarilə, müəllim əməyinin keyfiyyətinin yüksəlməsinə gətirib çıxaracaq.

**Məktəblərdə bilik səviyyəsi qənaətbəxş hesab olunurmu?**

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Rəşad Tağıyev qeyd etdi ki, təhsil hər zaman dəyişən, yeniliklərə və islahatlara açıq sahədir. Bu baxımdan qarşıda duran hədəflərin müəyyən edilməsi və təhsil sahəsində qabaqcıl dünya təcrübəsinin mənimsənilməsi mühüm amildir: "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qarşıya qoyulan hədəflər, nəticə etibarilə, təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Dövlət Strategiyasının icrası çərçivəsində həyata keçirilən tədbirlər, ümumilikdə, təhsilin səviyyəsinin yüksəlməsində, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılmasında, şagirdlərin tədris göstəricilərinin müvafiq meyarlar üzrə yaxşılaşmasında özünü göstərir.

Təhsilin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ali və orta ixtisas məktəblərinə qəbul göstəricilərində müsbət dinamika müşahidə olunur. Belə ki, qəbul imtahanlarında iştirak edən 17 505 abituriyentin 13 012 nəfəri, yəni 74 faizi respublikanın müxtəlif ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunub. Bakı şəhəri üzrə qəbul imtahanlarında uğur qazanmış abituriyentlərin 22 faizi 500 və 500-dən çox bal toplayıb. Həmçinin, Azərbaycan beynəlxalq təhsil reytinqlərində bütün göstəricilər üzrə irəliləyir, beynəlxalq olimpiadalardakı uğurların sırası genişlənir.

Ümumi təhsildə keyfiyyətə birbaşa təsir edən amillərdən biri də "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təsbit olunmuş tam orta təhsil səviyyəsində tədrisin təmayüllər üzrə təşkili məsələsidir. Şagirdlərin seçdikləri ixtisas istiqamətləri üzrə daha yüksək bilik və bacarıqlara yiyələnməsini təmin etmək məqsədilə son illər bu sahədə ciddi addımlar atılır, təhsilin təmayüllər üzrə təşkil olunduğu məktəblərin şəbəkəsi ardıcıl şəkildə genişləndirilir.

Onu da qeyd edim ki, dövlət rəhbərinin təhsilə həssas münasibəti nəticəsində infrastruktur yenilənir, təhsilin keyfiyyəti yüksəlir, təhsil işçilərinin sosial rifahı ilbəil yaxşılaşır. Bu isə, ümumilikdə, müəllim peşəsinə marağın artmasına səbəb olur".

**Məktəblərdə İKT-dən istifadə imkanı hansı səviyyədədir...**

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, təhsilin keyfiyyətinə təsir edən mühüm amillərdən biri məktəbəqədər təhsillə əhatəlilik səviyyəsidir: "5 yaşlı uşaqların təhsilə cəlb edilməsi səviyyəsi ötən tədris ilində 75 faizə çatdırılıb. İstedadlı uşaqlarla iş sahəsində görülən tədbirlər nəticəsində ötən il respublika fənn olimpiadalarında iştirakçı sayında artım özünü göstərib. Ümumilikdə, olimpiadalarda 33 min şagird iştirak edib. Bu da 2013-cü illə müqayisədə 5 dəfə çoxdur".

Onun sözlərinə görə, 2018-2019-cu tədris ilində Azərbaycanda məktəblərin 62 faizi internetlə təmin olunub: "Yeni tədrisdə İKT-dən istifadə imkanlarının genişləndirilməsi baxımından ölkə üzrə internetə və Azərbaycan Təhsil Şəbəkəsinə (ATŞ) qoşulmuş məktəblərin sayı 2746-ya çatdırılıb. Ötən tədris ilində məzmun islahatları çərçivəsində dərslik hazırlığında yeni reqlament və prosedurlar tətbiq edilib. Təhsil İnstitutu nəzdində Tədris Resursları Mərkəzi yaradılıb, prosesə dərslik hazırlığı üzrə mütəxəssislər cəlb edilib, qabaqcıl təhsil sistemlərinin təcrübəsi və bu sahədə mövcud olan innovasiyalar tədqiq edilib və yeni məzmun konsepsiyası əsasında ümumtəhsil məktəbləri üçün ehtiyat dərsliklərin hazırlanmasına başlanıb".

**"Müəllim olmaq istəyənlərin deyil, müəllim kimi işə başlayanların da sayı artır"**

Ekspert onu da əlavə etdi ki, əvvəlki tədris illərində olduğu kimi, ötən müddətdə də müəllimlərin peşəkarlıq səviyyəsi artırılıb: "Sadəcə, müəllim olmaq istəyənlərin deyil, müəllim kimi işə başlayanların da sayı artıb. 2018-2019-cu tədris ilində, ümumilikdə, müddətsiz müqavilə əsasında 4053, müddətli müqavilə əsasında 4500 müəllim işə qəbul edilib ki, bu da son illərdə vakant yerlərin 100 faiz tutulması baxımından ən yüksək göstərici olub. Görülən işlərin nəticəsidir ki, ümumilikdə, son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub. Ümumiyyətlə, 2018-2019-cu tədris ilində görülən işləri, həyata keçirilən islahatları müsbət hesab edirəm və düşünürəm ki, bu, ölkədə təhsilin inkişafını daha da sürətləndirəcək".

**Təhsildə yaşanan problemlər...**

Bildirək ki, bu gün təhsil sektorunda qeydə alınan inkişafla yanaşı, bəzi problemlər də var. Təhsil eksperti Nadir İsrafilov bildirdi ki, bəzi şagirdlərin və müəllimlərin psixoloji problemləri var: "Ona görə də məsələyə həssaslıqla yanaşılmalıdır. Nəzərə almaq lazımdır ki, ölkədə 1 milyon 600 min şagird təhsil alır və onların hər birinin xarakteri ayrıdır. Həm də onlar formalaşmış xarakterlə məktəbə daxil olurlar. Çünki onlarda xarakter 3-5 yaşlarında formalaşır. Ona görə də məktəb dövründə həmin uşaqlarla yaxşı məşğul olmamışıqsa, gələcək inkişaflarında problem ola bilər. Bəllidir ki, məktəblərdə hər kəsə istənilən tərbiyə verilə bilməz. Təhsil sahəsində aparılan islahatlar bir çox məsələ ilə əlaqəlidir.

Onu da bildirim ki, qeyd olunan sektorda yaşanan problemlərdən biri də bəzi ixtisasların müəyyən müddət keçəndən sonra lazımsız peşəyə çevrilməsi ilə bağlıdır. Bu səbəbdən də dövrün tələbinə uyğun kadrların hazırlanmasına ehtiyac var. Nəzərə almaq lazımdır ki, 10 ildən sonra dünyada mövcud ixtisas və peşələrin 80 faizinə ehtiyac olmayacaq. Hansı sahə daha çox inkişaf edəcək, o sahələrə görə də qərarlar veriləcək. Bu da iqtisadi strategiya ilə əlaqəlidir. Təhsil sistemi elə baza bilikləri verməlidir ki, gənclərimiz buna yiyələnə bilsinlər".

*Günel CƏLİLOVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

**Bu gün Azərbaycanda turizmin inkişafı üçün lazım olan bütün şərait mövcuddur. İstirahət mərkəzləri, otellərdə istirahət etmək istəyənlər üçün hər bir şərait yaradılıb. Bununla yanaşı, dövlət tərəfindən də turizm sektorunda çalışanlara müəyyən güzəştlər tətbiq olunur.**

# Turizm sahəsində yeni işə başlayanlara vergi güzəştləri nəzərdə tutulur



***Elçin Rüstəmov:** "Vergi güzəştləri turizm şirkətlərinin xərclərini azaldır və onların inkişafını stimullaşdırır"*

Eyni zamanda, turizm xidməti göstərən şəxslər və bu sahə üzrə yeni fəaliyyətə başlayan şəxslər üçün vergi güzəştinin tətbiqi nəzərdə tutulur.

Bu barədə Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmit Azərbaycan Otel Assosiasiyasının II Baş Assambleyasında çıxışı zamanı deyib. O qeyd edib ki, vergi güzəştlərinin tətbiqi ölkədə turizm biznesinin inkişafına böyük töhfə verəcək: "Turizm haqqında" qanun layihəsinin qəbulu nəticəsində gələn il ərzində çoxlu müsbət dəyişiklik baş verəcək. Azərbaycan turizmi dünyada ötən ilə nisbətən daha yaxşı tanınır. İnternet texnologiyalarının tətbiqi və mətbuatda aparılan təşviqat bu işə töhfə verib. Şəkidə, Lənkəranda aparılan sorğuların nəticələrinə əsasən, ən aşağı məmnunluq səviyyəsi aviabiletlərin qiyməti, yerli səyahət bazarı və nəqliyyat sisteminin keyfiyyəti ilə bağlıdır. Bu sahədə inkişafın baş verməsinə ehtiyac var. Buna nail olmaq, bu sahədə tövsiyələrin verilməsi üçün növbəti illərdə birgə əməkdaşlığın qurulması qarşıda duran əsas vəzifələrdəndir".

Ekspertlərin fikrincə, turizm xidməti göstərən şəxslər və bu sahə üzrə yeni fəaliyyətə başlayan şəxslər üçün vergi güzəştinin tətbiq olunması turizm sektorunun inkişafına səbəb olacaq.

*"...orta və kiçik sahibkarlığın inkişafına çox böyük töhfə olacaq"*

Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov bildirdi ki, vergi güzəştləri turizm şirkətlərinin xərclərini azaldır və onların inkişafını stimullaşdırır: "Turizmin inkişafına dəstək məqsədilə istifadə oluna biləcək iqtisadi alətlər rəngarəngdir. Təmənnasız olaraq dövlət tərəfindən torpaq sahəsi verilə bilər, vergi güzəştləri, ölkəyə turizm sahəsində mütəxəssislərin cəlb olunmasında da güzəştlər tətbiq oluna bilər, yeni turizm obyektləri üçün xaricdən gətirilən avadanlıqlara tətbiq olunan aksiz dərəcələrində güzəştlər mümkündür. Bundan başqa, potensialı olan regionlarımız var ki, onlara az investisiya yatırılır. Həmin regionlarda turizmlə məşğul olan sahibkarlara vergi güzəştləri edilə, hətta bir neçə il gəlir vergisindən azad oluna bilərlər".

Həmsöhbətimiz onu da vurğuladı ki, turizm sektoruna vergi güzəştlərinin tətbiq olunması qeyd olunan sahənin inkişaf etməsinə səbəb olacaq. Xüsusilə də orta və kiçik sahibkarlığın inkişafına çox böyük töhfə olacaq: "Vergi güzəşti qüvvəyə minərsə, bu hal ölkəmizin turizm sənayesinin inkişafına öz təsirini göstərəcək".

***Günel CƏLİLOVA***

**Azərbaycan elmində gəncləşdirmə siyasəti, gənc alimlərin yetişdirilməsi əsas prioritet kimi götürülsə də, vaxtilə elmin idarə edilməsi sahəsində mövcud olan bir sıra problemlər gənclərin elmə kütləvi axınına müəyyən qədər əngəl olub. Hazırda bu sahədə müşahidə edilən durulaşma gənclərin elmə marağının artmasına səbəb ola bilər.**

# Gənc alimlərin say problemi - yaşı 30-dək olan cəmi 325 alim...



***İlqar Orucov:** "Gənc alimlərin sayının azalması, bu prosesin yaşlıların xeyrinə dəyişməsi Azərbaycan elminin qocalmasının birbaşa göstəricisidir"*

Yayılan rəsmi məlumatlara görə, Azərbaycanda yaşı 30-a qədər olan cəmi 325 alim var, onların arasında yalnız 30 nəfəri elmlər doktoru adı ala bilib. 30 yaşa qədər elmlər doktoru olanların 26-sının kişi, 4-nün isə qadın olduğu qeyd edilir.

Qaydalara görə, elmlər doktoru elmi dərəcəsinin alınması üçün əvvəlcə fəlsəfə doktoru dərəcəsinin alınması əsas şərtdir.

Bu gün dünyanın elm tutumlu ölkələrinin çoxunda 30 yaşa qədər alimlərin böyük əksəriyyəti elmlər doktoru, professor elmi dərəcəsinə, adına sahibdirlər. Dünya elmində alimlərin gəncləşdirilməsi prosesinin sürətlə getdiyi bir vaxtda Azərbaycanda gənc alimlərin sayının belə az olması diqqəti çəkir. Halbuki, Azərbaycanda kifayət qədər savadlı, potensiallı gənc var ki, onların elmlər doktoru, professor olması çoxdan baş verməli idi.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, ali təhsil üzrə tanınmış ekspert İlqar Orucov "Bakı-Xəbər"ə açıqlamasında yaşı 30-a qədər olan alimlərin sayının azlığına aydınlıq gətirdi. "Yaşı 30-a qədər olan alimlər gənclər sayılır. Bu kateqoriya aid olanlar arasında 300-dən artıq alimin olması, əlbəttə, azdır. İllərdir biz bu məsələni qaldırırıq. Əslində, gənc alimlərin yaşı 35 götürülür. Bütün hallarda, elmdə olan gənclərin yaşı hər zaman gündəmdə olub və bu bizim üçün həmişə narahatedici məqamlardan biridir. Yaşı 30-qədər olan gənc alimlərin sayının az olması bizi həmişə ciddi narahat edib. Gənc alimlərin sayının azalması, bu prosesin yaşlıların xeyrinə dəyişməsi Azərbaycan elminin qocalmasının birbaşa göstəricisidir və bu çox zərərli bir tendensiyadır. Təbii ki, bu elə bir məsələdir ki, gənc alimlərin sayının süni şəkildə artırılması da düzgün deyil. Hesab edirəm ki, Azərbaycan elmində vacib məqamlardan biri kəmiyyət yox, keyfiyyət məsələsidir. Çox təəssüf ki, biz keyfiyyətdən elə də geniş mənada danışa bilmirik. Eyni zamanda, gənclər üçün baryerlər məsələsi yenə də gündəmdədir. Hər zaman biz bu maneələri görürük, yaşlı nəslin nümayəndələrinin elmə gələn gənclərə qarşı müəyyən basqılarını hiss edirik. Bu məsələlər, əlbəttə ki, elmlə məşğul olan gənclərin fəaliyyətinə mənfi təsir göstərir. Açığını deyim ki, yaşlı alimlərin elmdə olması elmimizin qocalması deməkdir. Onların böyük əksəriyyəti müxtəlif vəzifələri zəbt ediblər, amma heç bir elmi işlə məşğul deyillər. Amma elmi məqalələr çap olunarkən həmin yaşlı alimlərin adları orada birinci qeyd edilir. Yəni bu onu göstərir ki, gənc alimlərə problem yaradan, onların elmi adlar, dərəcələr almasına əngəl olan, ilk növbədə, bəzi yaşlı alimlərdir. Bununla bağlı həmişə mövqeyimizi ortaya qoymuşuq. Gəncləri həmişə irəli aparmaq, önə çəkmək lazımdır. Təsəvvür edin ki, 80-85 yaşlı bir adam hansısa bir elmi-tədqiqat institutuna 20-30 il rəhbərlik edir, bu adamın düşüncəsi necə ola bilər? Nədir bu adamları ikiəlli elmi müəssisələrin, laboratoriyaların müdirliyi vəzifəsindən yapışmağa vadar edən? Bu adamlar gəncləri elmə rəhbərlik edən kadrların arasında görmək istəmirlər".

*"Elmi-tədqiqat institutlarında, ali məktəblərdə bəzi yaşlı alimlər öz həmkarı ilə yaşadığı intriqanı gənclərə də yönəldir"*

İ.Orucov vurğuladı ki, bəzi yaşlı alimlərin dünya elmində gedən proseslərdən, baş verən yeniliklərdən xəbərləri yoxdur, bu adamlar yeniliyə meyl edən gənclərin qarşısını kəsirlər. "Yaşlı, qocalmış alimlər arasında çox ciddi intriqalar var. Onlar bu intriqaları gənclərə də yönəldirlər. Bu alimlər bir-birinə açıq nə isə edə bilmədikdə, heyfini, qisasını doktorantlardan çıxırlar. İntriqa aparan alimlərdən hansısa birinin elmi rəhbəri olduğu gənc elmi iş müdafiə edərkən digəri ona mane olur. Bu hallar da geniş yayılıb. Elmi-tədqiqat institutlarında, ali məktəblərdə bəzi yaşlı alimlər öz həmkarı ilə yaşadığı intriqanı gənclərə də yönəldir, bu da gənclərin müdafiə edib elmi ad almasına ciddi maneə olur" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

# Arıqladan dərmanların son vaxtlar kütləvi zəhərlənmələr törətdiyi barədə fikirlər dolaşır...

**Son illər dəbə minən arıqlama tendensiyası xüsusilə qadınlar arasında geniş yayılıb. Bir sıra hallarda qadın və qızların arıqlama üsulu kimi arıqlatma dərmanlarını, arıqlatma çay və kofelərini seçdiyini müşahidə edirik. Paytaxt apteklərindən aldığımız məlumata görə, qadın və qızlar əsasən arıqlatma dərmanları almaq, yaxud sifariş vermək üçün onlara yaxınlaşırlar.**



Onlayn dərman saytlarında da ən çox tələbat olan məhsulların arıqlatma dərmanları olduğu deyilir.

İctimaiyyət arasında dolaşan qeyri-rəsmi məlumatlara görə, son dövrlər Azərbaycanda qadınlar arasında sıx-sıx müşahidə edilən zəhərlənmə hallarının bir çoxu qidalardan deyil, arıqlatma dərmanlarının istifadəsi nəticəsində baş verir. Yəni arıqlatma dərmanlarından davamlı istifadə edən qadınların müəyyən bir qismi bu dərmanlardan zəhərlənir.

Hətta bir neçə gün əvvəl Bakı Dövlət Universitetinin zəhərlənən tələbələrinin bu vəziyyətə düşməsinə səbəb kimi arıqlama dərmanlarından istifadə edilməsi göstərilir. Dəqiqləşdirilməmiş məlumatlara görə, o qızların arıqlatma dərmanı içməsi ilə bağlı versiyalar var. Biz onların hansı vasitə ilə zəhərləndiyini bilmirik, heç tibbi ekspertiza da qızların zəhərlənmə səbəbilə bağlı doğru-düzgün nəticə təqdim etməyib.

## ***Rafis Bağırov:*** *"Qadınlar arıqlatma dərmanlarını normadan artıq qəbul etdikləri üçün onlarda zəhərlənmə baş verir"*

Qız və qadınların arıqlatma dərmanlarından zəhərlənməsi nə dərəcədə real görünür? Arıqlatma dərmanları can ala bilərmi?

Mütəxəssislər hesab edirlər ki, arıqlatma dərmanlarından istifadə etmək, arıqladıcı çay və kofeləri mütəmadi olaraq qəbul etmək insan orqanizmində böyük fəsadlar yaradır, maddələr mübadiləsini pozur, bəzən insana bioloji, psixi problem yaradır. Mütəxəssislər hesab edirlər ki, arıqlatma, eləcə də hamiləliyi pozan dərmanlardan istifadə qadınlara hərtərəfli zərər vurur, bu hətta onların zəhərlənməsinə, bəzən isə həyatlarını itirməsinə səbəb olur.

Tanınmış həkim Rafis Bağırov "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, normal şəkildə qəbul edilərsə, arıqlatma dərmanının heç bir zərərləyici risqi yoxdur. Bu dərmanların insanları arıqlatmasının mümkün olmadığını deyən mütəxəssis qeyd edir ki, sözügedən dərman vasitələrinin tərkibində beyində yerləşən aclıq sistemini blokadaya almaq gücündə olan maddələr var, o maddələr də insanda iştahasızlıq yaradır, bunun da nəticəsində arıqlama baş verir.

*"İstənilən dərmanın qəbulunda doza həddi aşılarsa, problem yarada bilər"*

R.Bağırov qeyd etdi ki, yalnız o dərmanı qəbul etməklə və bol qidalanma ilə arıqlamaq mümkün deyil. Bununla belə, R.Bağırovun sözlərinə görə, arıqlatma dərmanları o zaman zəhərlənməyə səbəb ola bilər ki, o normadan artıq qəbul edilsin: "Arıqlatma dərmanları o zaman zəhərlənməyə səbəb ola bilir ki, istifadəçi onu normadan artıq qəbul etsin. İstənilən dərmanın qəbulunda doza həddi aşılarsa, problem yarada bilər. Ümumiyyətlə, istənilən vitamini də normadan artıq qəbul etsən, zəhərlənmə verə bilər. Yaxud adicə suyu normadan artıq istifadə etsək, su zəhərlənməsi baş verər. O zəhərlənmə başqa zəhərlənmədən ağır olur. Görünür, qadınlar arıqlatma dərmanlarını normadan artıq qəbul etdikləri üçün onlarda zəhərlənmə baş verir, normada qəbul etsələr, heç bir zəhərlənmə baş verməz" - deyə R.Bağırov qeyd etdi.

***İradə SARIYEVA***

# Qadınlarımızı narkokuryerə çevirən mafiya strukturları fəallaşır...

**Qadınların onlar üçün xarakterik olmayan sahələrə cəlb edilməsi mənfi hal olsa da, təəssüf ki, müəyyən hallarda qadınları bu neqativlərdən qoruya bilmirik. Son illər cəmiyyətimizdə tez-tez eşidilən və arzuolunmaz olan narkokuryerlik işində qadınların da adının hallandırılması acı təəssüf doğurur.**



Hətta narkokuryerlik edən bəzi qadınların həbsi xəbərləri də medianın gündəmində yer alıb.

Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsinin rəisinin birinci müavini Güloğlan Muradlı mətbuata deyib ki, bəzi kişilər həyat yoldaşlarını narkokuryerliyə məcbur edirlər. Son illər qadınlardan narkokuryer kimi istifadə edilməsi hallarının artdığını deyən qurum rəsmisinin sözlərinə görə, ümumiyyətlə, narkotacirlərin 14 faizini qadınlar təşkil edir: "Təəssüf ki, son dövrlər biz öz həyat yoldaşlarını, qadınları narkotacirliyə sövq edən şəxslərlə tez-tez rastlaşırıq. Uşaqların dəqiq sayı bilinməsə də, bəzən olur ki, bu işə azyaşlı uşaqların da cəlb olunması faktı ilə üzləşirik".

G.Muradlı onu da ələvə edib ki, cari ilin 11 ayı ərzində daxili bədən boşluğunda narkotik vasitə keçirmə faktı ötən ilin eyni dövrü ilə müqayisədə 21 fakt artıb: "Ötən il insanların daxili bədən boşluğunda narkotik vasitə keçirmə faktı 87 olub. Bu il isə bu göstərici 108-ə çatıb".

## ***Mehriban Zeynalova:*** *"Narkokuryerə çevrilən qadınların çoxunun bu işə könüllü razılığı olmur"*

"Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova hesab edir ki, əslində bu problem yeni deyil. Zeynalova baki-xeber.com-a açıqlamasında bildirib ki, Azərbaycanda keçən əsrin 90-cı illərinin əvvəllərindən qadınların narkokuryerliyə məcbur edilməsi prosesi baş verib. M.Zeynalova hesab edir ki, qadınlar bu işə könüllü deyil, ərlərinin təhriki ilə qoşulur, bu isə onların öz ailələrini qorumaq cəhdindən irəli gəlib. Bəzi kişilərin qadınlarından bu şəkildə istifadə edilməsinin səhv addım olduğunu qeyd edən M.Zeynalovanın bildirdiyinə görə, qadınlar narkokuryerliyi könüllü seçmir: "Hələ keçən əsrin 90-cı illərindən bu problem müşahidə edilməyə başlayıb. Biz 1998, 2000-ci illərdə qadınların ərləri tərəfindən narkokuryerliyə məcbur edilməsi haqqında danışırdıq, amma təəssüf ki, buna qəribə baxırdılar. Amma bu gün artıq bu problem özünü daha qabarıq şəkildə göstərir. Qadınların ərləri tərəfindən narkokuryerliyə cəlb edilməsi halları daha çox rayon yerlərində müşahidə edilib. Bu qadınlar ailəsini qorumaq, yaxud da ərindən qorxduğu üçün ərin tapşırığını yerinə yetiriblər və narokuryerlik edirlər. İnanmıram ki, bu qadınların çoxu bunu könüllü edib. Əlbəttə, heç bir qadın istəməz ki, başqasının balası narkotikdən istifadə etsin. Bilirsiz, o vaxtlar qadınlar xırda cinayətlərə görə, çox da həbs edilmirdi. Bu da mentalitetimizdən irəli gəlirdi ki, qadın həbsə düşməsin. Bundan da bəzi kişilər sui-istifadə edərək yoldaşını bu işə cəlb edirdi. Bu gün isə qanunlar dəyişib, buna baxmayaraq yenə də həyat yoldaşını narkokuryerliyə məcbur edən kişilər, ərlər var".

M.Zeynalova hesab edir ki, o qadınlar narkokuryerlikdən elə də böyük gəlir əldə etmirlər, amma ərlərinin tapşırığı olduğu üçün onu yerinə yetirirlər. Bu halın qarşısının alınması üçün maarifləndirici tədbirlərə ehtiyac olduğunu deyən M.Zeynalova hesab edir ki, qadınlar özü də övladlarının xatirinə bu addımı atmamalıdırlar. "Bu əslində qadının kişidən nə qədər asılı olmağının göstəricisidir. Qadınlar narkokuryerlik edirsə deyim ki, onların bu işdən böyük qazanc götürmək, dillərə çevrilmək istəyi olmur, onun bu hərəkəti ərinin günahını öz üzərinə götürüb onu qorumağa xidmət edir. Yaxud da əri hesab edir ki, sərhəddən keçərkən qadın olduğu üçün arvadının üzərini yoxlamazlar, ona görə ona narkotik verir.

Narkokuryerə çevrilən qadınların çoxunun bu işə könüllü razılığı olmur, onlar bu işi ərlərinin təsiri və təhriki ilə edirlər. Onları ərləri bu işə məcbur edir. Bilirsiz ki, çox az qadın tapılar ki, başqasının övladının narkotiklə zəhərlənməsini qəbul etsin. Demirəm, indi bir-iki belə qadın ola bilər ki, o özü də istifadəçidir, daşıyıcıdır, bu da var, amma bunların sayı çox ola bilməz" - deyə M.Zeynalova qeyd etdi.

***İradə SARIYEVA***

№ 216 (4114) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

5 DEKABR 2019-cu il

www.baki-xeber.com

## "Azercell" "Bakutel" çәrçivәsindә yeni әmәkdaşlıqlara imza atdı

**Davamlı texnoloji inkişaf üçün yeni imkanlardan faydalanaraq "Bakutel-2019" Telekommunikasiya Sәrgisi çәrçivәsindә "Azercell" "Ericsson" şirkәti ilә Azәrbaycanda 5G-nin inkişafını sürәtlәndirmәk mәqsәdilә strateji tәrәfdaşlığa başlayır. "Bakutel" sәrgisinin ilk günü imzalanan Anlaşma Memorandumu 5G ilә bağlı layihәlәrin, sınaqların sınağı vә 2020-2022-ci illәr üçün texniki sınaqların fәaliyyәt planı xәritәsini әhatә edir.**

Bu ilin noyabr ayında "Azercell" tәrәfindәn Azәrbaycanda ilk dәfә olaraq 5G şәbәkәsinin flaqman mağazasında uğurla sınaqdan keçirilmәsindәn sonra "Azercell" vә "Ericsson" Bakı şәhәrinin mәrkәzindә 5G şәbәkәsini sınaqdan keçirmәyә davam etdilәr. Tәrәfdaşlar ziyarәtçilәrә mobil cihazlarda 5G şәbәkәsindәn yararlanmaq imkanı verәn, Fәvvarәlәr Meydanında yerlәşәn kommersiya-öncәsi 5G pilot zonasını yaratmış oldular.

Ölkәnin әsas telekom sәrgisi - "Bakutel 2019" tәdbirindә şirkәtlәr açıq 5G sürәt testi zamanı 1 Gigabit yüklәmә hәddinә çataraq beşinci nәsil mobil internet bağlantısının inkişaf etmiş imkanlarını nümayiş etdirdilәr. Ziyarәtçilәr Birgә Multisensor Kommunikasiya, 5G konfrans vә VR multiplayer oyun zonaları kimi üç 5G demo imkanlarının şahidi oldular.

"Azercell" vә "Ericsson" "Bakutel-2019" sәrgisindә 5G istifadә imkanlarının inkişafını, mәdәn sәnayesindә, kәnd tәsәrrüfatında, istehsalatda, mәnzil vә kommunal tәsәrrüfatlarında IoT (Әşyaların interneti) texnologiyasının tәtbiqi daxil olan, amma bununla mәhdudlaşmayan 5G kommersiya-öncәsi pilot zonasını genişlәndirmәk planını әhatә edәn Anlaşma Memorandumu imzaladılar. "Şirkәt olaraq, biz hәr zaman gәlәcәyin qurulmasını prioritet tutub, әn son texnoloji yeniliklәr dövründә yüksәk sürәtli mobil internet vә daimi innovativ hәllәr tәqdim etmәyә hәdәflәnirik. Daimi tәrәfdaşımız "Ericsson" ilә birlikdә "Azercell" ölkәdә ilk 5G pilot şәbәkәsini istifadәyә verәrәk, özünü dünyanın mobil bazarındakı liderlәri ilә bәrabәr sәviyyәyә çatdırdı. İnanırıq ki, 5G mobil internet bağlantısı üçün böyük bir addım olmaqla yanaşı, müәssisә vә sәnaye sahәlәrindә daha yüksәk mәhsuldarlıq, effektivlik vә müsbәt müştәri tәcrübәsi qazandırmaq üçün yeni imkanlar açacaq", - deyә "Azercell"in prezidenti Vahid Mürsәliyev bildirib.

"Azercell"in hazırda mövcud әn qabaqcıl telekomunikasiya texnologiyası olan 5G dünyasına sәyahәtdә dәstәk göstәrmәkdәn mәmnunuq. Hazırda, "Ericsson" tәrәfindәn tәchiz edilmiş 24 canlı 5G şәbәkәsi dörd qitәnin 14 ölkәsindә istifadәyә verilmişdir. Bu ölkәlәrdә istehlakçılar 5G satış xidmәtlәrindәn çox razıdırlar, bu texnologiya çox sürәtlә yayılır. Bu gün Azәrbaycandakı әsas tәrәfdaşımız olan "Azercell" ilә birlikdә 5G-nin verә bilәcәyi daha geniş imkanlar, innovativ hәllәr vә tәtbiqlәrә yol açmaqdan qürur duyuruq", - "Ericsson"un Şәrqi Avropa vә Orta Asiya bölgәsi üzrә prezidenti Sebastian Tolstoy qeyd edib. Qeyd edәk ki, sәrgi çәrçivәsindә, "Azercell" şirkәtinin prezidenti Vahid Mürsәliyev, hәmçinin, "SmartCell" hәllinin tәtbiqi ilә bağlı Nәqliyyat, Rabitә vә Yüksәk Texnologiyalar Nazirliyi Mәlumat Hesablama Mәrkәzinin direktoru Elnar Әsәdov ilә Anlaşma Memorandumu imzalayıb. Mәlumat üçün bildirәk ki, "SmartCell" - üz tanıma texnologiyası (Face ID) ilә mobil nömrәlәrin satışını hәyata keçirәn rәqәmsal nömrә satışı sistemidir.

"Azercell" Azәrbaycanı yeni bağlantı erasına hazırlamaq vәdәsinә sadiq qalaraq yerli vә beynәlxalq şirkәtlәrlә yeni әmәkdaşlıq layihәlәrini genişlәndirәcәk.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Elan

Şәki rayonu, Cәyirli kәnd sakini Әsgәrov Rizvan Söhrab oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 422 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Әmirbәyova Alidә Ağami qızının adına, Bakı şәhәri, Suraxanı rayonu, Әmircan qәsәbәsi, Pravda döngәsi, dalan 2, ev 2 "a" ünvanına verilmiş qeydiyyat vәsiqәsi (seriya FM №040993) itdiyi üçün etibarsız sayılır.

## "Bakcell" "Bakutel -2019" sәrgisindә: әn üstün şәbәkә vә müştәri tәcrübәsi

**"Bakcell" şirkәti 25-ci Yubiley Azәrbaycan Beynәlxalq Telekommunikasiya, İnnovasiya vә Yüksәk Texnologiyalar Sәrgisindә iştirak edir.**

Şirkәt öz әnәnәsinә sadiq qalaraq, bu il dә öz stendindә Azәrbaycanın әn böyük mobil şәbәkәsini vә әn sürәtli mobil internet xidmәtini, özünün son nailiyyәtlәrini, mәhsul vә xidmәtlәrini nümayiş etdirir, hәmçinin, bir sıra әylәncәli tәdbirlәr, maraqlı oyunlar vә müsabiqәlәr tәşkil edir.

Bundan әlavә, "Bakcell" öz stendindә şirkәt üçün yeni ayrılan "099" prefiksinin dә yaxın gәlәcәkdә istifadәyә verilәcәyini elan edir.

**Әn üstün әhatә dairәsi vә әn sürәtli mobil internet**

"Bakutel-2019" sәrgisindә quraşdırılmış "Bakcell" stendinin qonaqları ölkәdә әn geniş әhatә dairәsinә malik olan, tanınmış OOKLA şirkәti tәrәfindәn sınaqdan keçirilәrәk ardıcıl olaraq 3 dәfә Azәrbaycanın әn sürәtli mobil şәbәkәsi adına layiq görülmüş "Bakcell" şәbәkәsinin imkanları ilә tanış olmaq fürsәti qazanacaqlar.

Bu gün 8000-dәn artıq baza stansiyası vasitәsilә "Bakcell" şәbәkәsi әhalinin 99%-ni, ölkә әrazisinin isә 93%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir. Şirkәt әhatә dairәsi vә trafik buraxma qabiliyyәti baxımdan ölkәnin әn geniş vә sürәtli 4G şәbәkәsinә malikdir.

**"Mәnim Bakcellim": virtual müştәri xidmәti mәrkәzi**

Bundan әlavә, sәrgi ziyarәtçilәri ölkәnin telekommunikasiya bazarında ilk virtual müştәri xidmәtlәri alәti olan "Mәnim Bakcellim" mobil tәtbiqetmәsi ilә tanış olmaq, mobil әlavәni sınaqdan keçirib onun maraqlı vә unikal funksiyaları barәdә mәlumat almaq imkanına malik olacaqlar. "Mәnim Bakcellim" abunәçilәrә mәlumat mәrkәzinә zәng etmәdәn vә müştәri xidmәti mәrkәzinә getmәdәn mobil nömrә ilә istәnilәn әmәliyyatı hәyata keçirmәk imkanı verir. "Mәnim Bakcellim" istifadәçilәrә maksimum şәffaflıq vә rahatlıq, zәng olunmuş nömrәlәrin siyahısı, zәnglәrin vaxtı vә müddәti vә sәrf olunmuş mәblәğlәr daxil olmaqla nömrәnin istifadә tarixçәsinә aid bütün mәlumatlara tam nәzarәt imkanı vә hәtta onlayn çat kimi üstünlüklәri tәqdim edir.

**"AppLab": Azәrbaycan gәnclәri üçün yeni imkanlar**

"Bakcell" stendindә, hәmçinin, ideyaların, mobil tәtbiqlәrin vә texnologiyaların pilot variantından istifadәyә tam hazır mәhsul variantınadәk çatdırılmasında gәnc yerli developerlәrә kömәk edәn "AppLab" proqramı vә bu proqram çәrçivәsindә startaplar tәrәfindәn yaradılmış 2 layihә tәqdim edilir. Buradakı "ToWaves" ortaq maraq vә oxşar fikirlәri olan insanları bir araya gәtirәn şәbәkәdir. "Bon.az" isә istifadәçilәrin onlayn alış-verişdәn "cashback" әldә etmәsi üçün yaradılan sistemdir.

**"Bakcell" vә "Ulduzum"dan çoxlu hәdiyyәlәr**

"Bakcell" şirkәtinin "Bakutel-2019" stendinin ziyarәtçilәri sәrgidәn әylәncәsiz ayrılmayacaqlar. Onlar "Ulduzum" loyallıq tәrәfindәn tәşkil edilmiş oyunda iştirak edib şәnlәnmәyә, hәdiyyәlәr qazanmağa vә "Bakcell" şirkәtinin bu maraqlı loyallıq proqramı barәdә mәlumatlanmağa dәvәt olunacaqlar.

Bundan әlavә, "Bakcell" stendindә Virtual Reallıq oyunlarını oynamaq vә lotereyalarda iştirak edib çoxlu hәdiyyәlәr qazanmaq da olar.

***

Mehriban vә әylәncә dolu bir mühitdә ölkәnin әn üstün şәbәkә vә müştәri tәcrübәsi barәdә mәlumat alıb unudulmaz tәәssüratlar әldә etmәk üçün "Bakcell" şirkәti "Bakutel-2019" sәrgisinin bütün ziyarәtçilәrini öz sәrgi stendinә dәvәt edir.





**Qoç** - Diqqәti işә cәlb etmәklә uğurlar әldә etmәk olar. Danışıqlar aparmaq, әmәkdaşlığa başlamaq vә işgüzar sәfәrlәr üçün münsib gündür. İş partnyorlarınızla fikir ayrılıqları mümkündür.



**Buğa** - Siz bu çәtin gündә qarşısına qoyduğu mәqsәdlәrә çata bilәn azsaylılara aidsiniz. Hәr şey sizin inadkarlığınızdan asılıdır. Hamının vә hәr şeyin әleyhinizә olduğu bir vaxtda da tәslim olmursunuz.



**Әkizlәr** - Çәtin vәziyyәtdәn qalib kimi, yalnız çәtinliklәrdәn qorxmayan vә açılmayan qapını dәfәlәrlә döymәyә hazır olan adamlar çıxa bilәcәklәr. İstәnilәn mәqsәdә çatmaq üçün böyük enerji sәrfi tәlәb olunur.



**Xәrçәng** - Yeknәsәk vә darıxdırıcı gündür. Hәyatınıza müxtәliflik gәtirmәk, әrafdakıları "oyatmaq" istәsәniz dә, bu, yaxşı heç nә vermir. Sizin ideyalarınız yalnız mәnfi reaksiya doğuracaq.



**Şir** - Gün çoxsaylı çәtinlik vә sınaqlar gәtirәcәk. Gününüz çәtin keçәcәk. Sevindirici bircә şey var - yanınızda bel bağlanası adamlar yox deyil. İşgüzar görüşlәr dә ümidlәrinizi doğrultmayacaq.



**Qız** - Hәtta, kimsә özündә bir balaca әmәk entuziazmı tapsa belә, tәkbaşına hünәr göstәrmәli olacaq. Bu isә uğur şanslarını әhәmiyyәtli dәrәcәdә azaldır. Enerjili hәmfikir tapmaq ehtimalı isә yox dәrәcәsindәdir.



**Tәrәzi** - Öz tәnbәlliyinizlә mübarizә aparmalı olacaqsınız. Bu gün işgüzar fәallıq aşağı sәviyyәdәdir, hәllini gözlәyәn vәzifәlәr isә az deyil. Kömәkçilәriniz etimadı doğrultmayacaq vә başa düşәcәksiniz ki, hәr şeyin öhdәsindәn özünüz daha yaxşı gәlә bilәrsiniz.



**Әqrәb** - Gün әlverişsiz emosional fonu ilә fәrqlәnәcәk. Bu, bir çox münasibәlәrdә, ilk növbәdә, romantik münasibәlәrdә gәrginliyә sәbәb olacaq. Barışmaq isә olduqca çәtin olacaq.



**Oxatan** - Yeni başlanğıclar üçün әlverişsiz gündür. Lakin köhnә layihәlәri sona çatdıra bilәcәksiniz. Çünki, qarşıdakı günlәrdә neqativ tendensiyaların tәsiri güclәnәcәk vә bununla bağlı probelmlәr yarana bilәr.



**Oğlaq** - Sizi ağır gün gözlәyir. Siz çәtinliklәrә hazır olsanız belә, bu qәdәr ciddi vәziyyәtlә qarşılaşacağınızı qabaqcadan ağlınıza da gәtirә bilmәzdiniz. Rәhbәrlik vә işgüzar mühitlә münasibәtlәriniz korlanacaq.



**Dolça** - Uğurlu vә mәhsuldar gündür. Daha çox işlәyin vә әmәyinizin mükafatı sizi mәyus etmәyәcәk. Zәngin fantaziyanız sayәsindә başqalarının hәll edә bilmәdiklәri problemlәrdәn çıxış yolu tapa bilәrsiniz.



**Balıqlar** - Kifayәt qәdәr çәtin gündür. Birbaşa fәaliyyәt göstәrmәk heç cür mümkün olmur, manevrlәr etmәk, fәndgirliyә әl atmaq lazım gәlir. Tәәssüf ki, intriqalar meydanında bәdxahlarınız daha yaxşı oynayırlar.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Ata qızı ilә evlәnmәk istәyәnә 300 qara donuz vәd etdi



**Çinin Henan şәhәrindәn olan 24 yaşlı Cang Ciyuan adlı gәncin ailә qurmaması atasını ciddi şәkildә narahat edib.**

"Milli.Az" xәbәr verir ki, 3 il әvvәl Cang universiteti bitirәrәk, valideynlәrinә kömәk etmәk üçün doğma şәhәrinә qayıdıb. O, ailәsinә donuz yetişdirmә işlәrindә kömәk edir. Cang sәhәr bazarda donuz әti satır, sonra tövlәni tәmizlәyir vә heyvanları yedirir. Qız artıq 24 yaşındadır. Buna görә, atası onun ailә qurmaq mәsәlәsini öz әlinә almağa qәrar verib. O,qızı ilә evlәnәcәk şәxsә 300 dәnә qara donuz vәd edib. Cang hәsәd aparılan bir gәlin namizәdi hesab edilә bilәr, çünki, Çindә donuz әtinin qiymәti günbәgün artır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.